# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir



4

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva

SƏS

№ 070 (7238)

26 aprel 2025-ci il.
Qiyməti 60 qəpik

## Azərbaycan Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaşdır



2

*Prezident İlham Əliyev Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallası qəbul edib*

# Çin taarif savaşına qarşı




6

***Donald Tramp Pekinlə mübarizədə özünə müttəfiq axtarır***

## Pakistan-Hindistan qarşıdurması nüvə müharibəsinə gətirib çıxara bilər



10

**İşıqforun altında düşüncələr...**



4

Həcc ziyarətinə sənəd qəbulunun vaxtı uzadıldı - 1 nəfər üçün 6000 dollar...



16

## Kiberdələduzluq artır - DİN vətəndaşlara çağırış edib



16

## Təbii fəlakətlər: insan təbiətlə döyüşür



12



# Prezident İlham Əliyev Bakıdakı Müqəddəs Məryəm Ana katolik kilsəsində olub, Roma Papası Fransiskin vəfatı ilə əlaqədar başsağlığı verib



*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 25-də Bakıdakı Müqəddəs Məryəm Ana katolik kilsəsində olub, Roma Papası Fransiskin vəfatı ilə əlaqədar başsağlığı veriblər.*



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını və birinci xanımı Azərbaycanda Katolik Kilsəsinin apostol prefekti, yepiskop Vladimir Fekete qarşıladı. Azərbaycan Prezidenti və birinci xanım matəm kitabına ürək sözlərini yazdılar. Sonra dövlətimizin başçısı və birinci xanım Vladimir Fekete ilə söhbət etdilər.



Roma Papası Fransisklə görüşlərini və onun Bakıya səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı qeyd etdi ki, Papa Fransiskin Heydər məscidində ölkəmizdə fəaliyyət göstərən dini icmaların nümayəndələri ilə görüşü insanlar arasında birliyin bərqərar olmasının vacibliyi ilə bağlı mesaj idi. Prezident İlham Əliyev Papa Fransiskin xatirələrdə çox sadə, adi insanların ehtiyac və arzuları ilə yaşayan bir şəxs kimi qalacağını dedi. Birinci xanım Mehriban Əliyeva da öz növbəsində Papa Fransisklə görüşlərini məmnunluqla xatırladı. Vladimir Fekete dövlətimizin başçısına və birinci xanıma başsağlığına görə minnətdarlığını bildirdi. O, Roma Papasının katolik kilsənin lideri kimi bir nümunə olduğunu dedi.



# Azərbaycan Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaşdır



*Prezident İlham Əliyev Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallası qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallası qəbul edib. AZƏRTAC xəbər verir ki, Kaya Kallas Avropa İttifaqının Azərbaycanla əlaqələri yüksək dəyərləndirdiyini və bu münasibətləri daha da inkişaf etdirməkdə maraqlı olduğunu qeyd etdi.

Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində çox uğurlu və səmərəli əməkdaşlığın olduğunu vurğulayan qonaq ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş rolunda çıxış etdiyini dedi.

O, nəqliyyat bağlantıları mövzusuna toxunaraq, bu xüsusda da çox mühüm regional bir dövlət olan və vacib geosiyasi məkanda yerləşən Azərbaycanın rolunun əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu dedi, Cənub Qaz Dəhlizinin 4 ildir fəaliyyət göstərərək Avropanın qaz təchizatında oynadığı əhəmiyyətli rola toxundu.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan artıq Avropanın 10 ölkəsini, o cümlədən Avropa İttifaqının 8 üzvünü qazla təchiz edir. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan qaz təchizatının coğrafi əhatəsinə görə Avropa məkanını qazla təmin edən ilk ölkələrdən biridir.

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Azərbaycanla Avropa İttifaqı arasında uğurlu və səmərəli dialoqun mövcud olduğunu deyən dövlətimizin başçısı bərpaolunan enerji sahəsində də əməkdaşlıq üçün böyük imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev bu xüsusda qeyd etdi ki, ölkəmiz Xəzərin Azərbaycan sektorunda zəngin külək enerji resurslarına malikdir. Dövlətimizin başçısı vurğuladı ki, eyni zamanda, Azərbaycan Mərkəzi Asiya ölkələri ilə bərpaolunan Trans-Xəzər enerji dəhlizinin inkişaf etdirilməsində və Qara dəniz istiqamətində Gürcüstan, Rumıniya, Macarıstan, son dövrlərdə isə Bolqarıstanın da qoşulduğu layihələrin reallaşdırılmasında mühüm rol oynayır.

Azərbaycan Prezidenti bildirdi ki, ölkəmizlə Avropa İttifaqı arasında qazla yanaşı, nəqliyyat sahəsində də əməkdaşlıq üçün geniş imkanlar var. Söhbət zamanı, həmçinin Cənubi Qafqaz regionunda davamlı sabitliyin təmin olunmasına dair fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində ikitərəfli əsasda addımların atıldığını və müzakirələrin aparıldığını qeyd etdi. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev ATƏT-in Baş katibini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də ATƏT-in Baş katibi Feridun Sinirlioğlunu qəbul edib. dövlətimizin başçısı Feridun Sinirlioğlunu ATƏT-in Baş katibi vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi.



Feridun Sinirlioğlu təbrikə görə təşəkkürünü bildirdi. Qonaq Cənubi Qafqaz bölgəsinin ATƏT-in gündəliyində duran mühüm regionlardan biri olduğunu vurğuladı. ATƏT-in Baş katibi Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətninin razılaşdırılması ilə bağlı əldə olunmuş nəticələrə görə təbriklərini çatdıraraq, iki ölkənin münasibətlərinin normallaşdırılması istiqamətində müzakirələrin aparıldığını qeyd etdi. Qonaq ATƏT-in Azərbaycanla həyata keçirdiyi əməkdaşlıq layihələrinə toxundu.

Dövlətimizin başçısı keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həllində tam iflasa uğramış ATƏT-in Minsk qrupunun və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtının artıq çoxdan çatdığını deyərək, Ermənistan tərəfindən də bu xüsusda addımların atılmalı olduğunu bir daha qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini hərbi və siyasi yollarla tam təmin etdiyini, bununla da ölkəmiz tərəfindən Helsinki Yekun Aktının, beynəlxalq hüququn norma və prinsiplərinin Cənubi Qafqazda təsbit edilməsinin təmin olunduğunu dedi. Görüşdə Azərbaycan ilə ATƏT arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.



# Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva

***Yüksək elmi nailiyyətləri, xeyirxah və nəcib əməlləri ilə xalqımızın yaddaşında həmişəyaşarlıq qazanmış Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Zərifə Əliyevanın adı Azərbaycanın XX əsr tarixinin ən görkəmli simaları sırasına qızıl hərflərlə yazılıb. Tanınmış ziyalı nəslinin layiqli davamçısı, zəngin mənəviyyata sahib, sədaqətli ömür-gün yoldaşı, qayğıkeş ana, bütün intellektual keyfiyyətləri özündə birləşdirən görkəmli şəxsiyyət dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq-alim və xeyirxah insan kimi şərəfli bir ömür yaşamışdır. Sıravi həkimlikdən akademik zirvəsinə ucalan Zərifə xanımın həyatının hər bir anı mənəvi kamillik və müdriklik məktəbidir.***

Bu gün böyük alimin anadan olmasının 102 illiyi tamam olur. Bu xeyirxah, mehriban, səmimi İnsanı tanıyan hər kəsin yaddaşında o, Azərbaycan ziyalı qadınının ən gözəl simalarından bir olaraq həkk olunub. Zərifə xanım Əliyevanın xarakterində məsuliyyət, zəhmətkeşlik və xeyirxahlıq kimi böyük xüsusiyyətlər cəmləşmişdir. Görkəmli dövlət və elm xadimi Əziz Əliyevin övladı olmaq kimi böyük bir məsuliyyəti şərəflə daşıyan Zərifə xanım Əliyeva, həm də həkim və alim kimi nümunəvi fəaliyyəti ilə fərqlənmiş, oftalmologiya tarixinə adını qızıl hərflərlə yazmışdır. Görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım Əliyevanın həyat yolu hər bir Azərbaycan vətəndaşı, alimi və həkimi üçün mənəviyyat dərsi, kamillik məktəbidir. Zərifə xanım gözəl tədqiqatçı, Ulu Öndər Heydər Əliyevin ömür yoldaşı, sadiq dost, övladlarına qayğıkeş ana və nənə, eləcə də əsl insanlıq nümunəsi kimi ismi xüsusi vurğulanır.

## ZƏNGİN ÖMRƏ SALINAN ŞTRİXLƏR

1923-cü il aprelin 28-də Azərbaycanın dilbər guşəsi olan Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açan Zərifə xanım xalqına ləyaqətlə xidmət edən parlaq simaya çevrilib. Öz parlaq istedadını zəhməti ilə vəhdətdə ortaya qoyan Zərifə xanım elm, ədalət, səxavət, səbr, ismət kimi keyfiyyətləri əməli fəaliyyətində və özündə birləşdirib. Zərifə xanımın zəngin və şaxəli həyat yoluna nəzər saldıqda bu həyat yolunda bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqətdən yayınmır. Bir ana ömrü, tədqiqatçı ömrü, həkim ömrü, alim ömrü. Bu keyfiyyətlər və dəyərlər məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə, zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan çalarları və zəkası ilə qaranlıq dünyalara şəfa verdi. Qəlb dünyasının işığı tez bir zamanda Onun Azərbaycan məkanında tanınmasına gətirib çıxardı. Sonralar bunun coğrafi məkanı daha da genişləndi.

Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyinin geniş yayıldığı zamanda, ona qarşı təsirli müalicə üsulları yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi. 1968-ci ildən başlayaraq, Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başlayır.

## AVERBAX ADINA MÜKAFATA LAYİQ GÖRÜLƏN İLK QADIN

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil edir. Zərifə xanım "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə edir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilir. Elmi tədqiqatların nəticəsi olaraq, Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən, "Şin istehsalında gözün peşə patologiyası", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirməyə nail olur. "Xroniki yod intoksikasiyasında oftalmologiya" mövzusunda yazdığı növbəti monoqrafiya 1981-ci ildə işıq üzü görür. Elə həmin il oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülür. Qeyd olunmalıdır ki, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Zərifə xanımın, sözün əsl mənasında, böyük həkim olduğunu bildirmişdi: "O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərmişdir. Eyni zamanda, insanların görmə qabiliyyətinə mənfi təsir göstərən istehsalatlarda onun laboratoriyaları fəaliyyət göstərmişdir. Bu laboratoriyalarda bir tərəfdən insanların sağlamlığına zərərli istehsalların təsiri öyrənilmiş, eyni zamanda, xəstələrin müalicəsi də təşkil edilmişdir. Alim kimi Zərifə xanım çox böyük zirvələrə çata bilmişdir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir". 1977-ci ildə onun təşəbbüsü ilə Bakıda ilk dəfə olaraq Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin plenumu keçirildi. Dünya şöhrətli alimlərin iştirak etdiyi bu mötəbər tədbir Azərbaycan elminin gələcəyi, onun inkişafı naminə ən tanınmış elmi mərkəzlərlə birgə tədqiqatların aparılması, peşəkar kadrların hazırlanması üçün böyük imkanlar yaratdı.

## TƏBABƏTDƏ DƏST-XƏTTİ OLAN NOVATOR ALİM

Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Görkəmli alim, ictimai xadim, Azərbaycan EA-nın akademiki, tibb elmləri doktoru, professor, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının müdiri, Azərbaycan EA Fiziologiya İnstitutunun laboratoriya rəhbəri, Azərbaycanın əməkdar elm xadimi, Tibb Elmləri Akademiyası mükafatı laureatı Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən, 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır. Zərifə Əliyevanın Azərbaycan EA-nın akademiki seçilməsi Onun böyük xidmətlərinin, çoxillik səmərəli elmi tədqiqat işinin etirafıdır.

Akademik Zərifə Əliyeva ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Zərifə xanım zaman-zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi. Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında həmişə yüksək fikirdə olublar. Akademik A.Nesterov deyirdi: "Zərifə Əliyeva böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm".

## "HƏKİM XEYİRXAH İNSAN OLMALIDIR"

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyevanın elmi fəaliyyətini, peşəkarlığını yüksək qiymətləndirmişdilər. Belə ki, Moskva Oftalmoloji Məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, professor A.Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov isə yazırdı: "Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım, deyərdim: O, həm Xeyirxah idi, həm Ağıllı idi, həm də Qüdrətli idi!"

## AZƏRBAYCAN QADINLARINA ÖRNƏK

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, Onun fədakar ANA olmasından irəli gəlirdi.

**Əziz anam, şirin sözlü anam,**
**Qəlbin kövrək, eşqin solmaz bahar.**
**Gülər üzlü, qara gözlü anam,**
**Hara getsəm gözün mənə baxar.**
**Ana qəlbin layla olar gəzər,**
**Doğma səsin ömrü-günü bəzər.**

## "ZƏRİFƏ XANIM KİMİ HƏYAT YOLDAŞIM OLDUĞUNA VƏ O, AİLƏMDƏ ÇOX YÜKSƏK MƏNƏVİ MÜHİT YARATDIĞINA GÖRƏ MƏN XOŞBƏXT OLMUŞAM"

Zərifə xanımın ömür-gün yoldaşı dünya şöhrətli Şəxsiyyət Ümummilli Lider Heydər Əliyev Azərbaycan qadınları haqqında deyirdi: "Azərbaycan qadını mərd, sədaqətli, qeyrətli, namuslu qadındır. Mən dünyanın çox yerini gəzmişəm, dünya qadınlarını görmüşəm, fikrim belədir ki, Azərbaycan qadını bütün dünyadakı qadınlardan gözəldir". Həqiqətən də Azərbaycan qadınları dünyada yaxşı nə varsa ona layiqdir. Ulu Öndər Heydər Əliyev deyirdi: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib. Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib". Zərifə xanım Azərbaycan xalqına məxsus, millimənəvi, əxlaqi dəyərləri özündə cəmləşdirmiş bir Ana idi. İşinin çox olmasına baxmayaraq, Zərifə xanımın gözəl övladlar yetişdirməsi və ictimai fəaliyyəti bu gün də örnək olacaq bir fəaliyyətdir. O, əməli işin xoş təəssüratları ilə hamının qəlbində daim yaşayır və yaşayacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ədəbiyyatımızda Mir Cəlalın ədəbi dünyası



***XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş görkəmli yazıçı, böyük alim Mir Cəlal Paşayev həm də yüksək insani keyfiyyətləri ilə nurlu şəxsiyyətlərdən biri kimi xalqımızın yaddaşında özünə əbədiyaşarlıq qazanıb. Azərbaycan ədəbiyyatında hekayə ustası, sanballı romanlar, povestlər müəllifi kimi tanınan Mir Cəlal Paşayev əli qələm tutan gündən ömrünün sonuna qədər həm bədii ədəbiyyat, həm də ədəbiyyatşünaslıq sahəsində eyni həvəs və coşqunluqla, yorğunluq bilmədən çalışmış, zəngin irsin müəllifinə çevrilmişdir.***

Mir Cəlal həm gözəl hekayə ustası, sanballı romanlar, povestlər müəllifi kimi tanınır, həm ədəbiyyatımızın yaradıcılarından biri, həm də gözəl ədəbiyyatşünas alim kimi qiymətləndirilir. Onun yaradıcılığında Azərbaycan xalqının tarixinin böyük bir zaman kəsiyi öz əksini tapıb. Böyük yazıçı öz əsərlərində təkcə tariximizi deyil, eyni zamanda, mədəniyyətimizi də nümayiş etdirmişdir. Yazıçının yaradıcılıq yolunu işıqlandıran akademik Nərgiz Paşayeva yazır: "Təxminən əlli illik bədii yaradıcılığında Mir Cəlal öz oxucuları ilə həmişə səmimi və obyektiv söhbət aparmışdır: həyat materialını hər cür "kosmetik ədəbiyyatlardan" uzaq, bütün həqiqətləri ilə, gözəllik və faciələri ilə, gülməli və ağlamalı tərəfləri ilə canlandırmağı bacarmışdır".

Mir Cəlal Paşayev öz sadə, təvazökar həyatı ilə bir ziyalı olduğunu sübut etmişdir. Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Əndəbil kəndində yoxsul kəndli ailəsində dünyaya göz açıb. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığını burada keçirib. Mir Cəlal 10 yaşında olanda atası vəfat edib və o, böyük qardaşının himayəsində yaşayıb. Gəncə şəhərində ibtidai təhsilini almış, uşaqlıq və gənclik illərini bu şəhərdə keçirmişdir. 1924-1928-ci illərdə Gəncə Darülmüəllimində oxumuş, oranı bitirdikdən sonra Gədəbəy 7 illik məktəbinə müəllim göndərilmişdir. 1929-1930-cu illərdə 1 saylı Gəncə şəhər məktəbində direktor vəzifəsində çalışmışdır. 1930-1931-ci illərdə Kazan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsində oxumuş, 1932-ci ildə Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitunun aspiranturasında təhsilini davam etdirmiş, 1933-cü ildə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin ictimai elmlər bölməsinə elmi işçi vəzifəsinə götürülmüşdür. 1936-1941-ci illərdə Pedaqoji İnstitutda və Dövlət Universitetində müəllimlik etmişdir. Mir Cəlal 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" adlı əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru, alimlik dərəcəsi almışdır.

### "BİR GƏNCİN MANİFESTİ" MİR CƏLAL YARADICILIĞININ BÜTÜN GÖZƏL KEYFİYYƏTLƏRİNİN VƏHDƏTİDİR"

Görkəmli nasir Mir Cəlal yaradıcılığının mövzu rəngarəngliyi, üslub xüsusiyyətləri, bütünlükdə orijinallığı ilə Azərbaycan yazıçıları içərisində özünəməxsus yer tutur. Mir Cəlal ədəbiyyatımızda müxtəlif problemlərini işıqlandıran onlarla dəyərli tədqiqat əsərinin müəllifi kimi tanınmışdır. Səməd Vurğun, Süleyman Rəhimov, Mehdi Hüseyn kimi görkəmli söz ustadları ilə bir dövrdə yaşayan Mir Cəlal Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirib. Mir Cəlal bədii yaradıcılığa 1928-ci ildən başlamışdır. İlk hekayə və oçerkləri 1930-cu ildə çap olunmuşdur. İlk hekayə və oçerkləri "Qızıl Gəncə", "Ədəbiyyat cəbhəsində", "Hücum" jurnallarında və "Gənc işçi" qəzetində dərc olunmuşdur. Dövrün ruhuna uyğun olaraq "Sağlam yollarda" adlandırdığı ilk oçerklər kitabı 1932-ci ildə çap olunmuşdur. O, ədəbiyyat tarixinə, tənqid və ədəbiyyatşünaslığa dair bir sıra qiymətli əsərin müəllifidir. Mir Cəlal diqqətəlayiq romanlar müəllifi kimi də tanınmışdır. "Dirilən adam" və "Bir gəncin manifesti" romanları yazıçının dəyərli əsərlərindəndir. Yazıçının ilk irihəcmli əsəri – "Dirilən adam" romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr olunub. Akademik Məmməd Arif bu əsər haqqında yazıb: "Mir Cəlal "Dirilən adam"la diqqətli bir realist yazıçı olduğunu göstərmişdir".

"Bir gəncin manifesti" Mir Cəlal yaradıcılığının bütün gözəl keyfiyyətlərinin vəhdətidir", - deyən xalq şairi Bəxtiyar Vahabzadə bunu nəinki Mir Cəlalın, Azərbaycan nəsrinin ən gözəl nümunələrindən biri kimi qiymətləndirirdi. Sonralar Mir Cəlal Azərbaycan həyatının aktual problemlərinə həsr olumuş "Açıq kitab", "Təzə şəhər", "Yolumuz hayanadır?" kimi romanlarını yazır.

### HƏYAT, İŞIQ VƏ DƏRİN TƏFƏKKÜR

Bədii ədəbiyyatın müxtəlif janrlarına müraciət edən Mir Cəlal yaradıcılığında kiçik hekayələr xüsusi yer tutur. Akademik Nərgiz Paşayeva yazılarında vurğulayır ki, Mir Cəlalın hekayələrində yazıçı, müəllim və alim birləşir. O, müəllim olmaqla yanaşı hekayənin nəzəriyyəsini də, praktikasını da bilirdi. Mir Cəlalın hekayələrində özündən əvvəlki realizm, lirizm ənənələri və bizim maarifçi ədəbiyyatın didaktikası birləşib. 1940-cı ildə Mir Cəlalın hekayələrinin rus dilinə Əziz Şərif tərəfindən tərcümə olunması gözəl bir təşəbbüs kimi qiymətləndirilməlidir. Ədibin istedadlı gənclərə olan məhəbbətini, analıq şərəfini və uşaqlara qayğı məsələsini ürəklə tərənnüm etdiyi "Bostan oğrusu", "Yanlış barmaqlar", "Mərkəz adamı" kimi hekayələr tərbiyəvi əhəmiyyətli olduğu üçün yüksək qiymətləndirilmişdir. O, "Pərzad", "Qaymaq", "Dost görüşü", "Qonaqpərəst" kimi hekayələrində Azərbaycan xalq adət və ənənələri ilə bağlı motivlərə xüsusi diqqət yetirib, hekayələrin həyat və məişətlə üzvi əlaqəsindən bəhs edir. İkinci Dünya müharibəsinə, ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orjinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. İkinci Dünya müharibəsi dövründə "hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı ədəbiyyatın da istiqamətini, yaradıcılıq pafosunu və inkişaf yolunu müəyyənləşdirən xarakterik əlamət oldu. Onun bütün əsərləri gözəldir, oçerklərindən monoqrafiyalarına, hekayələrindən romanlarına qədər hər bir əsərində həyat, işıq, dərin təfəkkür, mənalı-məzmunlu, təsirli dil-təhkiyə vardır.

Müharibə illəri Mir Cəlalın ədəbi-elmi fəaliyyətində yeni səhifələr açır. Müharibənin əvvəllərində Uzaq Şərqdəki ordu hissələrinə gedən, habelə döyüşən ordunun həyatı ilə yaxından tanış olan ədib çoxlu oçerk, hekayə və publisist yazıları ilə nəzəri cəlb edir. Mir Cəlal "Yollar", "Axşam səfəri", "Atlı", "Snayper" hekayələrinin mövzusunu bilavasitə cəbhə həyatından, müharibə səhnələrindən götürmüş və səciyyəvi fəaliyyət prosesində açılan döyüşçü surəti yaratmağa çalışmışdır. Ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orijinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Səməd Vurğun Onun əsərlərinin təsir gücündən yazarkən belə qeyd edir: "Aldığımız cəbhə məktubunda bir döyüşçü yazır ki, "Vətən yaraları" hekayəsini oxuduqdan sonra mən düşmənə qarşı daha kinli və amansız oldum".

Azərbaycan ədəbiyyatına böyük töhfələr vermiş yazıçının "Bir gəncin manifesti" Azərbaycan gəncinin manifestidir. Görkəmli yazıçı öz əsərləri ilə gənclərə Vətənə, xalqa məhəbbət hissi aşılamış, onlara xalqın sevincinə sevinməyi, kədərinə kədərlənməyi öyrətmişdir.

### BƏŞƏRİLİYƏ HEYRANLIQ

Ədəbi fikrimizin tarixinə Mir Cəlal, həmçinin, görkəmli tənqidçi-ədəbiyyatşünas kimi də daxil olmuşdur. O, Azərbaycan ədəbiyyatının 1975-ci illərədək keçdiyi yola, sənətkarlıq, realizm və xəlqilik axtarışlarına, ədəbi prosesin mənzərəsinə, janrların vəziyyət və imkanlarına dair məzmunlu çıxışlar edir, məqalələr yazır, tədqiqat işləri aparırdı. Azərbaycan Respublikası Prezidentinin "UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" 2008-ci il 31 yanvar tarixli Sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilmişdir. Parisdə, UNESCO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilmişdir.

Mir Cəlal Paşayevin 100 illiyinin UNESCO səviyyəsində qeyd edilməsi, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür. İllər ötdükcə Mir Cəlal Paşayevin təkcə elmi irsi tədqiq edilmir, Onun həm də xeyirxahlığı, böyük və alçaqmaz müəllimliyi, bəşəriliyi heyranlıqla qarşılanır və sevilə-sevilə qəlblərdə özünə ucalıq abidəsi qurur. Ədibin bu zirvədəki yeri daim qalacaq və Onun mərhəmət sevgisi dünya durduqca yaşayacaqdır.

***Zümrüd BAYRAMOVA***

---



Mətanət Məmmədova

## İşıqforun altında düşüncələr...

***Hərdən işıqforun altında təktənha dayanıram. Elə bu səbəbdən də düşünməyə vaxt çox olur. Əksər adam ötür, keçir, qaçır, maşınların arasından ilan kimi sürünüb o başa çatır. Maşınlar da sağ olsunlar, düz keçid xəttinin üzərində dayanır. Sanki burada dayanmaq qadağan deyilmiş kimi...***

Lap tək qalanda isə, düzü, bir az xəcalət də çəkirəm. Düşünürəm ki, kənardan baxanlar birdən məni anormal hesab edər. Deyərlər ki, bunun başı xarab olub görəsən, bir neçə dəqiqədir ki, durub burada yaşıl işığı gözləyir. Ona görə də başımı aşağı salıram ki, heç kimin mənə rişxəndlə baxdığını da görməyim.

Hələ o gün lap utandım. İşıqforda dayanmışam. Beş-altı gənc qız da yaxınlaşdı. Bir az durdular orada. Onlardan biri:

-Ay qızlar, niyə dayanmısınız, maşın yoxdur ki, keçin də.

Qızlar da düşdü onun ardınca, getdilər. Hələ arada dönüb mənə də baxdılar. Sanki demək istədilər ki, başın xarab olub, niyə dalımızca gəlmirsən?..

Mən də gözlədim, yaşıl işıq yandı, sonra keçdim. Keçmək deyəndə də, yaşılda elə bilirsiniz yol bizim olur? Yolumuzu tutan maşınların arasından ora-bura vurnuxmaqdan adamın başı gicəllənir. Lakin di gəl, gör, maşının sürücüsünün bu, vecinədir ki, axı mən bu adamın yolunu niyə kəsmişəm? Üstəlik musiqiyə də o qədər səs verirlər ki, yaxınlaşdıqca, deyirsən bəlkə bu dəqiqə üzərinə top atılacaq.

Nə etməli, bizim şəhərdə işıqfor mədəniyyəti belədir də. Bir gün deyil, iki gün deyil, gərək öyrəşəsən, əlac yoxdur. Bir də, bu işıqfor məsələsi bir az da fərasət istəyir. Bir də baxırsan ki, camaat qırmızı işıqda kütləvi şəkildə yolun ortasındadır, o tərəfdən də maşınlar elə sürətlə gəlir, deyirsən bəlkə işıq sürətidir. Belə olanda ağ xətt üzərində bir qaçaqaç düşür, gəl, görəsən. Maşınlar siqnallayır. Kənardan qulaq verən olsa, deyər bəlkə toydur, gəlin köçür.

Lakin nə toy, nə gəlin. Təzə xəbərdir niyə? Bu şəhərdə hər saniyə toydur, yollardan hər an gəlin karvanı keçir. Maşınlar siqnallayır, ağız deyəni qulaq eşitmir, camaat bir-birinə qarışır, ora-bura qaçır. Baxdıqca düşünürsən ki, vallah, bu sürücüləri də, işıqfora məhkum olunan insanları da Allah qoruyur. İlahi bir qoruma olmasa, hər gün neçəneçə maşın neçə-neçə insanın sonu ola bilər.

Bəzən də düşünməli olursan ki, indi ki bu işıqforlara məhəl qoyan yoxdur, onlar nə üçün saxlanılır? Lakin tezcə də bu fikirdən vaz keçirsən. Çünki işıqforlar yol hərəkəti qaydalarına müvafiq olaraq yerində olmalıdır. Bəlkə nə vaxtsa ya bizim uşaqlar, ya uşaqlarımızın uşaqları, onlar da olmasa, onların uşaqları bu işıqfora riayət edərlər. Sürücülər işıqforun xətti üzərində dayanıb yolu keçilməz etməzlər. Bəlkə nə vaxtsa bu şəhərin bəzi insanları işıqfor haqqında müəyyən biliyə sahib olar, o qızlar kimi "maşın yoxdur, keçin də" deməz, işıqforda təkcə dayanan adamı başı xarab hesab etməzlər. Bəlkə bir gün bu işıqforun məhz insanların sağlamlığı, rahatlığı və təhlükəsizliyi naminə qoyulduğu anlaşılar. İnşallah, bəlkə bu gün olmayanlar sabah olar?..

# “Konstitusiya Ulu Öndər Heydər Əliyevin tarixi xidmətidir”



*Aprelin 25-də “Konstitusiya və Suverenlik İli” çərçivəsində YAP Qəbələ rayon təşkilatı və Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi PHŞ-nin birgə təşkilatçılığı ilə “Konstitusiya Ulu Öndər Heydər Əliyevin tarixi xidmətidir” mövzusunda tədbir keçirilib.*

SİA xəbər verir ki, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi PHŞ-də keçirilən tədbirdə öncə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçərək şəhadətə yüksəlmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra “Konstitusiya və Suverenlik İli” ilə əlaqədar videoçarx nümayiş olunub. Tədbiri giriş sözü ilə açan YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov qeyd edib ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik ili” elan edilməsi, ölkəmizdə hüquqi dövlət quruculuğu prosesinin daha da inkişaf etdirilməsi, suverenliyin möhkəmləndirilməsi istiqamətində atılan addımların davamı kimi mühüm əhəmiyyət daşıyır. Vurğulayıb ki, Bu Sərəncam olduqca mühüm bir dövrə təsadüf etdi: 2025-ci il müstəqil Azərbaycan Respublikasınının ilk milli Konstitusiyasının qəbul edilməsinin 30-cu, eləcə də Vətən müharibəsində Ermənistan ordusu üzrədinə qazanılan böyük Qələbəmizin 5-ci ildönümündə imzalandı. geniş ictimaiyyət tərəfindən müzakirəsinə şəxsən nəzarət edib, məsələlərlə yaxından maraqlanıb.

Yap Qəbələ rayon təşkilatının sədr müavini Anar Şirinov qeyd edib ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyanın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbənin 5-ci ildönümünü nəzərə alaraq Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2025-ci il ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilməsi hüquqi dövlətçilik və suverenlik dəyərlərinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

Çıxış edən Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi ərazi partiya təşkilatının sədri Reyhan Məmmədova bildirib ki, dövlətimizin müstəqillik tarixinin mühüm hadisələrindən olan əsas qanun məhz Ulu Öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində hazırlanmışdır. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Azərbaycan Respublikası Konstitusiyasının qəbulu ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə yol açmışdır. Əsas qanunda cəmiyyətin inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə təsbit edilmişdir. Partiya fəalı Türkan Gözəlli çıxışında qeyd edib ki, torpaqlarımızın işğaldan azad edilməsi və suverenliyimizin tam təmin olunması nəticəsində əsas qanunda ehtiva edilən Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti də tam reallaşıb. Belə ki, Konstitusiyanın 11-ci maddəsinə əsasən Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Daha sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi PHŞ-nin direktoru Qalib Nəbiyev çıxışı zamanı Azərbaycan Respublikasının Konstitusiya layihəsinin hazırlanmasının vacibliyindən danışıb. O bildirib ki, konstitusiyamız müstəqil dövlətçiliyimizin qurucusu, Ümummilli Lider Heydər Əliyevin şah əsərlərindən biridir. Bildirib ki, 1995-ci il iyunun 5-də Heydər Əliyevin Sədrliyi ilə Konstitusiya Komissiyasının ilk iclasından başlayaraq, 12 noyabr referendumunadək Ümummilli Lider Azərbaycanın Əsas Qanununun hazırlanmasına, onun bütün prinsipial müddəalarının




# Avropalıların yuxularını qarışdıran QORXULAR

***Dünyada baş verənlər, dünya düzənində olan dəyişikliklər, xüsusən də Amerikanın hazırkı mövqeyi avropalıları bərk narahat etməyə başlayıb və hətta qorxuya belə salıb. Bu narahatlığı və qorxunu hiss etmək heç də çətin deyil və ən azından Avropa ölkələrinin davranışları bunu açıq şəkildə ortaya qoyur. Bir zamanlar, daha dəqiq desək, bu vaxta qədər guya Ukraynanı qorumağa çalışan avropalılar indi ancaq özlərini qorumaq barədə düşünürlər. Avropalıları narahat edən həm savaş, döyüş, həm də siyasi və iqtisadi baxından qarşılaşa biləcəkləri çətinliklərdir. Bu baxımdan da Avropa dövlətlərinin müharibəyə hazırlaşmaları, aydın şəkildə müşahidə edilən hazırlıq prosesi anlaşılandır. Hər halda, Avropa Birliyi ölkələrində olan təlaşı görməmək mümkün deyil və qorxuları da artıq göz önündədir.***



### Bundan sonra ciddi rəqabət və hətta düşmənçilik belə mümkün görünür

Qorxu kompleksi daha çox təzahür etməkdədir. Görünən odur ki, bütün dünya artıq xaos, qarışıqlıq qorxusu yaşayır və bunun da təsadüfi olmadığı məlum məsələdir. Ümumiyyətlə, qarışıqlıqların ilkin əlamətləri getdikcə daha qabarıq şəkildə üzə çıxdığı üçün narahatlıqlar da getdikcə böyük sürətlə artmağa başlayır. Məsələ burasındadır ki, avropalıların narahatlıqları daha çox diqqəti cəlb edir və bunun da səbəbsiz olmadığı heç də şübhə doğurmur.

### Savaşa, müharibəyə və hansısa rəqabətə hazırlıq görülməsi düşündürücüdür

Son zamanlar Ağ Evin məhz Moskva ilə müəyyən danışıqlara girməsi bundan sonrakı hadisələr üçün fərqli proqnozlar verməyə əsas yaradır. İndiyə qədər Ukraynanı müdafiə edənlərin indi də qarşı tərəflə danışıqlar aparmaq maraqları avropalıları bir qədər çaşdırıb və hətta təlaşlandırıb da. Amerikanın dəstəyinə arxalanan Avropa Birliyi ölkələri indi özlərini meydanda tənha vəziyyətdə hiss edirlər və “tək qalmış” sayırlar. Onlar belə hesab edirlər ki, təkcə dəstəkdən məhrum olmayıblar, həmçinin, Rusiyanın savaş açmaq planının da ortaya çıxma ehtimalı ilə üz-üzədirlər. İndi “qoca qitə” öz taleyi, özünün bundan sonrakı vəziyyəti ilə bağlı daha çox narahatdır və daha çox qorxu keçirir. Bu qorxu səbəbindən də hətta başlaması mümkün hesab edilən savaşa, müharibəyə hazırlıq görülməsinin labüdlüyü barədə də düşünülür. Avropanın bir çox siyasətçiləri, ələlxüsus da hərbi-siyasi dairələri elə hesab edirlər ki, onların müəyyən hazırlıq görmələri üçün çox az vaxtları qalıb. Ona görə də ən yaxşı taktikanın məhz Rusiyanın dağıdılması olduğu düşünülür. Belə hesab olunur ki, Rusiyanın dağıdılması üçün indidən ssenarilər hazırlanılmalıdır. Məsələ burasındadır, avropalılar onu da görürlər ki, Rusiyanın dağılması üçün heç bir əsas yoxdur və buna ümid etmələri də əbəs yerədir. Daha doğrusu, həmin ölkənin dağılması ilə bağlı ortada bircə dənə də “əlamət” görmürlər və bu xam xəyallarından belə qorxurlar. Qorxurlar ki, belə bir ssenarinin özü də onlara “baha” başa gələr.

### Həyəcan təbili çalınmasına əsas yaradan məhz qarşıdurma təlaşının olmasıdır

Hərbi iqtisadiyyat modelinə keçid etmək barədə planların hazırlanması heç də təsadüfi sayılmır. Bəzən avropalılar mümkün təhlükələrdən qorunmaq üçün belə gözlənilməz modellər barədə düşünürlər. Əslində, bunun, yəni, hərbi iqtisadiyyat modelinin çox vacib olduğu qənaətinə gəlməkdə özlərini haqlı bilənlər azlıq təşkil etmirlər. Məqsəd də məhz istənilən qarşıdurmaya hazır olmaqdan ibarətdir. Hətta yüksək rütbəlilər belə hazırlıqlı olmağın vacibliyini düşünürlər və bunu gizlətmirlər də. Bu barədə müvafiq çağırışların edilməsi də müşahidə edilir. Müharibə təlaşının artıq nəzərə çarpan həddə olması bir çox məqamlardan xəbər verir. Görünən odur ki, avropalı siyasətçilərin mövqeyi tamamilə fərqlidir və buna elə qorxunun təzahürü kimi baxsaq, daha doğru olar. Bu vaxta qədər yalnız Ukrayna ilə bağlı fikirlər səsləndirən siyasətçilər indi ancaq Avropa Birliyinin özü, öz taleyi barədə müvafiq həyəcan təbili çalırlar. Az öncə ukraynalıların silahlandırılmasının vacibliyini vurğulayanlar, bunu gündəmə gətirənlər indi avropalıların özlərinin müharibəyə hazırlıqlı olması çağırışı ilə çıxış edirlər. Bu gün avropalılar daha Amerikadan məhz Ukraynaya deyil, özlərinə yardım istəmək üçün hər addıma hazır görünürlər. Başa da düşürlər ki, artıq Amerika onlar üçün heç də Bayden adminstrasiyası dövründəki həmin o ölkə deyil. Dərk edirlər ki, Tramp indi Avropanı heç vecinə də almır və bircə ABŞ barədə düşünür.

Deməli, dünya ticarət müharibəsi dediyimiz “savaş” artıq bir reallıqdır. Avropalılar qorxurlar ki, əgər istehsalda, emalda, ticarətdə, iqtisadiyyatda da kölgədə qalsalar, deməli, ümumiyyətlə, bütün dünya Avropanı heç görməyəcək. Heç hesaba da almayacaq. Deməli, hansısa Avropa Birliyindən, onun rolundan, mövcudluğunun vacibliyindən daha söhbət də gedə bilməz. Qoca qitə, bu yekəlikdə Avropa yaddan çıxmaq, hesaba belə alınmamaq qorxusu yaşayır. Bir sözlə, avropalıları qorxudan məqamlar yetərincədir və yuxularını da qarışdıran elə qorxularıdır.

***İnam Hacıyev***

***ABŞ-ın yeni administrasiyası ilk baxışdan dünyaya təkbaşına sahib olmaq istəmir, amma digər qütb(lər)də elə dövlət(lər)i yerləşdirmək istəyir ki, Ağ Evin razılığı olmadan addım atmasın(lar). Nəzərdə tutulan dövlət bir də ola bilər, iki də. Donald Trampa zəifləmiş, "hey"i qalmamış dövlət lazımdır. Bunun üçün açıq savaş aparır, gah tarif dilini, gah da gücünü işə salır. Rusiya varlı ölkədir, gücü də var, amma yetərli deyil. Qərbin basqısı altındadır, Vaşinqtondan gələn mesajlara çox ümidlidir. Çin isə həm güclü iqtisadiyyatı, həm də yeni texnologiyası var, hərbi qüdrətini də hər keçən gün artırır. Ona görə də ABŞ Çinlə savaşında proksi qüvvələrə ümid bağlamağa məcburdur.***




# Çin taarif savaşına qarşı

## *Donald Tramp Pekinlə mübarizədə özünə müttəfiq axtarır*

Ağ Ev ABŞ və Hindistan arasında ticarət sazişi istiqamətində irəliləyiş olduğunu bildirib. Vitse-prezident J.D.Vens və Baş nazir Narendra Modi Vaşinqtonun tarif siyasəti ilə bağlı danışıqları yüksək qiymətləndiriblər. Tərəflər ortaq iqtisadi prioritetləri müzakirə etmək üçün yol xəritəsi müəyyən ediblər, - Ağ Evin bəyanatında deyilir. J.D.Vens aprelin 21-də Hindistana dördgünlük səfər edib.

Çinlə iqtisadi müharibənin ortasında ABŞ administrasiyası Asiyanın başqa bir əsas gücü olan Hindistan üzərində qələbə çalmağa çalışır. Və bəlkə də bunda ən mühüm rolu bu ölkəyə dörd günlük səfər edən və bazar ertəsi hökumət başçısı Narendra Modi ilə danışıqlar aparan vitse-prezident J.D.Vens oynamalıdır. Vens bu istiqamətdə istənilən, hətta ən çətin missiyaları yerinə yetirmək üçün ideal namizəddir. Həyat yoldaşı Uşa hindistanlıdır. Və onun və uşaqlarının vitse-prezidenti səfərdə müşayiət etməsi dərhal əlverişli emosional fon yaradıb. Lakin paralel siyasi fon olmasaydı, heç bir emosional fon missiyanın uğurunu təmin edə bilməzdi. Və bu, Amerika-Hindistan yaxınlaşması üçün həmişəkindən daha əlverişlidir.





Bunun səbəbi isə Donald Tramp administrasiyasının Çinə qarşı münasibətidir. Burada Dehli və Vaşinqton asanlıqla ümumi dil tapa bilərlər. Hindistan üçün Çin Pakistanla birlikdə ənənəvi geosiyasi rəqibdir. Son vaxtlar Pekinlə kəskin münaqişələrdən qaçınsa da, gərginlik aradan qalxmayıb. Üstəlik, Hindistan və Çin arasında regionda nüfuz uğrunda şiddətli mübarizə gedir. Şri-Lanka, Maldiv adaları, Nepal, Banqladeşdə ölkələrin maraqları toqquşur və bu, tam siyahıdan uzaqdır.

### ABŞ-Hindistan razılaşması

İndi də Tramp və komandasının fikirlərini nəzərə alsaq, ABŞ-la bir növ anti-Çin ittifaqı bağlamaq şansı var. Hərbi və siyasi baxımdan Dehli ilə Vaşinqton arasında yaxınlaşma uzun müddətdir ki, davam edir, lakin indi Amerika-Hindistan iqtisadi tandeminin yaradılması üçün ilkin şərtlər yaranıb. Vensin səfəri zamanı təsdiq olundu ki, Hindistan və ABŞ arasında ticarət dövriyyəsini hər il 500 milyard dollara çatdırmalı olan ikitərəfli saziş hazırlanır ki, bu da artıq Çin-Amerika ticarətinin həcmi ilə müqayisə oluna bilər. Daha doğrusu, Vaşinqton və Pekin ticarət müharibəsi başlamazdan əvvəl olduğu səviyyədə. Hindlilər öz məqsədləri barədə açıqdırlar - indi Çini tərk etmək məcburiyyətində qalan Amerika şirkətlərini ölkəyə cəlb etmək. Dehlinin ABŞ-ın tətbiq etdiyi tariflərə əks tariflərlə cavab verməməsi, bəzi güzəştlərə gedərək danışıqlara üstünlük verməsi kimi Trampın komandası bu ssenaridən kifayət qədər razıdır.

Bu, Ağ Evin bütün digər ölkələri qəbul etməyə çağırdığı yanaşmadır. Hindistan nümunəsinin yoluxucu olması üçün yaxşı bir şans var. Pekin bunu artıq hiss edib. Təsadüfi deyil ki, məhz Vensin Hindistana səfəri zamanı Çin Ticarət Nazirliyi qeyri-adi bəyanatla çıxış edərək, Vaşinqtonu "yumşaltmaq" siyasətini həyata keçirməyə çalışan, güzəşt və kompromislər yolu tutan dövlətləri pisləyib. Lakin Dehlinin bu xəbərdarlığa qulaq asacağını söyləmək çətindir.

### ABŞ Çinə qarşı...

Burada başqa bir sual yaranır. Bəs ABŞ-Hindistan yaxınlaşması Dehlini "qlobal cənubda" özünün əsas tərəfdaşlarından biri hesab edən Moskva üçün hansı nəticələrə gətirib çıxaracaq? Hələlik açıq-aşkar təhdidlər yoxdur. Bayden administrasiyasından fərqli olaraq, Trampın komandası Rusiya ilə mübarizəyə köklənmir; onlar üçün Çinlə qarşıdurma daha önəmlidir. Və təsəvvür etmək çətindir ki, bu gün Vaşinqton Dehlidən məsələn, Rusiya neftini almağı dayandırmağı tələb edən ultimatum verəcək. Rusiya-Hindistan münasibətlərinin hazırkı səviyyəsinin əsas göstəricisi baş nazir Modinin Moskvada Böyük Vətən Müharibəsində qələbənin 80-ci ildönümünə həsr olunmuş şənliklərdə iştirakı və ya iştirak etməməsi olacaq.

### Çin sona qədər mübarizə aparacaqmı?

Donald Trampın əvvəlcə demək olar ki, bütün dünyanı qlobal ticarət müharibəsinin astanasına gətirdiyi, sonra isə atəşini Çinə yönəltdiyi son bir neçə həftənin təlatümlü hadisələrinə nəzər saldıqda belə qənaətə gəlmək olmaz ki, nə o, nə də onun yaxın ətrafı Sun Tzunun klassik Çin Müharibə Qanunları traktatı ilə tanış olmağa vaxt tapmayıb. Orada deyilir: "Düşmənini tanı, özünü tanı, yüz döyüşdən sağ-salamat keçərsən, Düşmənini tanımırsan, ancaq özünü bilirsənsə, qələbələr və məğlubiyyətlər növbələşəcək, Əgər sən nə düşməni, nə də özünü tanımırsansa, bütün döyüşlərdə səni təhlükə gözləyir".

Belə görünür ki, ABŞ administrasiyası, ən azı, həm rəqibinin gücünü və hazırlıq səviyyəsini, həm də ən əsası, Amerikanın təzyiqinə müqavimət göstərmək əzminin dərəcəsini çox aşağı qiymətləndirib. Bu mövzuda Pekindən gələn siqnallar ya səhv şərh edilib, ya da qulaqardına vurulub. Çin üçün ən pis ssenarilər üçün iqtisadi hazırlıqlar çoxdan məlumdur və ötən ilin dekabrında təsdiq edilmiş 2025-ci il üçün iqtisadi siyasət məqsəd və vəzifələri siyahısına "xarici şoklara" hazırlıq üzrə direktivin əlavə edilməsi belə hazırlıqların əvvəlcədən və son dərəcə diqqətlə aparıldığını göstərirdi.

İkitərəfli münasibətlər yolunda, Pekin ticarət və iqtisadi sahədə ciddi Çin-Amerika ziddiyyətlərinin mövcudluğunu qəbul edərək, Trampa israrla onların qarşılıqlı hörmətli, bərabərhüquqlu dialoq vasitəsilə həll yollarını axtarmağın məqsədəuyğunluğuna işarə edərək, "qarşıdurma və qarşıdurmanın Çinin seçimi olmadığını" vurğulayıb. Xi Cinpin bu barədə hələ noyabr ayında, Trampın prezident seçkilərində qələbəsindən dərhal sonra danışmışdı. O, bunu yanvarın 17-də, Trampın andiçmə mərasimi ərəfəsində telefon danışığı zamanı təkrarlayıb. Amerikanın yeni administrasiyası ilk addımlarından Çinlə münasibətlərin gərginləşməsi yolu ilə getmək niyyətini açıq-aydın ifadə edəndə, Çin rəhbərliyi xarici işlər naziri Vanq Yinin ağzı ilə açıq şəkildə ifadə etdi ki, əgər Birləşmiş Ştatlar "təzyiq və Çini cilovlamaq" niyyətindədirsə, o zaman "Çin sona qədər mübarizə aparmağa məcbur olacaq, Amerika tərəfinin təktərəfli müdafiəsinə cavab verməyə məcburiyyətində qalacaq".

Bu tezis ilk dəfə fevral ayında Münhen Təhlükəsizlik Konfransında səsləndirilib və o vaxtdan müxtəlif səviyyələrdə Çin rəsmiləri tərəfindən təkrarlanıb. Eyni zamanda, Çin bu təhlükəni dərhal həyata keçirməyə tələsmirdi. Fevral və mart aylarında amerikalıların Çindən idxal edilən bütün idxal rüsumlarının ikiqat, 20% artmasına reaksiya ölçüldü və ümumilikdə kifayət qədər təmkinli oldu. Yalnız ayrı-ayrı məhsul qrupları üzrə rüsumların artırılması, Amerika iqtisadiyyatı üçün həssas olan nadir torpaq elementlərinin ixracına nəzarət rejiminin tətbiqi və ayrı-ayrı şirkətlərə məhdudiyyətlərin qoyulması ilə məhdudlaşdı.

Ardı Səh. 7






# Çin taarif savaşına qarşı

Əvvəli-Səh-6

Dialoqa gəlincə, Trampın komandası bunu prinsipial olaraq rədd etməyib. Üstəlik, departamentlər səviyyəsində əlaqələr daim saxlanılırdı, lakin tərəflər yanaşmalarında əsaslı ziddiyyətlər nümayiş etdirdilər. Onlar belə idi: Amerika tərəfi yuxarıdan aşağı, çinlilər aşağıdan yuxarı danışıqların tərəfdarı idi. Tramp, Xi Cinpinlə "çox, çox yaxşı münasibət" adlandırdığı şeyə istinad edərək, onunla telefon danışığını elan edib və vaxtaşırı prezident kimi ilk 100 gündə Çinə səfəri və ya Çin liderinin ABŞ-a səfəri haqqında danışıb. Əslində, Xi-yə birbaşa Trampla, necə deyərlər, "konsepsiyalarla" dərhal sövdələşmə bağlamağı təklif etdilər və bundan sonra ekspertlər onun təfərrüatlarını texniki olaraq dəqiqləşdirməli olacaqlar. Lakin bu yanaşma Pekinə o qədər də məqbul görünməyib. Onlar çətin ki, Trampın 2017-ci ilin payızında Çinə səfərini və 2018-ci ilin yazında Xi-nin Mar-a-Laqoya səfərini unutsunlar, o zaman Trampı "sakitləşdirmək" və onunla razılığa gəlmək cəhdləri nəticəsiz qalıb və ticarət müharibəsinin başlanmasının qarşısını ala bilməyib. Çin öz növbəsində, Amerikanın ultimatum tələblərinin birtərəfli qaydada qəbul edilməsi əsasında dialoqun aparılması perspektivini qətiyyətlə rədd edib, onun bərabər mahiyyətində israr edib, lakin problemli məsələlərin bütün spektrini müzakirə etməkdən imtina etməyib. Forma baxımından Çin tərəfi üçün optimal variant danışıqların ilkin mərhələdə ekspertlər səviyyəsində aparılması idi ki, dövlət başçıları şəxsi görüş zamanı əldə olunan razılaşmaları qeyd edə bilsinlər.

Çinin yeni ticarət müharibəsinə hazırlığında diplomatiya mühüm rol oynayıb. Təxmin etdiyimiz kimi, Çin əsas ticarət və iqtisadi tərəfdaşları ilə, ilk növbədə Avropa ilə, həmçinin Cənubi Koreya və Yaponiya ilə münasibətləri yaxşılaşdırmaq səylərini əhəmiyyətli dərəcədə artırdı. Bu baxımdan, yeni Amerika administrasiyasının proteksionizmə üz tutması, hətta ən yaxın müttəfiqlərinə və tərəfdaşlarına qarşı təkəbbürlü və laqeyd münasibəti və Cozef Baydenin prezidentliyi dövründə Çini cilovlamaq üçün onlarla koalisiya qurmaq strategiyasından faktiki imtina etməsi Çin diplomatiyası üçün bir növ dəyərli "hədiyyə" olub. Tramp administrasiyasının qlobal iqtisadiyyatda və ticarətdə səpdiyi xaos və onların iqtisadi maraqlarına birbaşa təhdid kontekstində bu ölkələr ehtiyatla və bir çox qeyd-şərtlərlə də olsa, Çinlə daha geniş qarşılıqlı əlaqənin xeyrinə öz siyasətlərini yenidən düşünməyə, Vaşinqtonun qarşıdurma siyasətini qeyd-şərtsiz və itaətkarlıqla izləməkdən imtina etməyə məcbur oldular.

Davam edən ticarət müharibəsi kontekstində Çinin daxili iqtisadiyyatının gücü məsələsi böyük əhəmiyyət kəsb edir. Böyümənin əsas mühərriki kimi daxili tələbata keçidindən danışılsa da, Çin iqtisadiyyatı ixracdan yüksək dərəcədə asılı olaraq qalır. Çin Xalq Respublikasının Dövlət Statistika Xidmətinin hesablamalarına görə, 2024-cü ildə ümumi ÜDM artımı 5% olmaqla, mal və xidmətlərin xalis ixracı bu artımın 1,5%-ni təşkil edib. Çinin ABŞ-a birbaşa mal ixracı keçən il 524,6 milyard dolları keçib ki, bu da ümumi ixracın 14,7 faizinə bərabərdir. Çin məhsullarının üçüncü ölkələr vasitəsilə tədarükünü nəzərə alsaq, ABŞ-ın payını 19-20% qiymətləndirmək olar. Çinin əsas partiya orqanı olan "People's Daily" qəzetinin şərhində qeyd edildiyi kimi, Çin-Amerika əlaqələrinin sürətlə və şiddətli şəkildə pozulması kontekstində "qısa müddətdə Çin ixracına mənfi təsirdən qaçmaq mümkün olmayacaq" və "iqtisadiyyat üzərində aşağı istiqamətli təzyiqin artmasının qarşısını almaq" mümkün olmayacaq. Çin iqtisadiyyatı bu ilin birinci rübünü yaxşı nəticələrlə başa vursa da: ÜDM artımı 5,4%, ixrac isə mart ayında 12,4% artıb, lakin gələcəkdə iqtisadi vəziyyətin xeyli çətinləşə biləcəyi gözlənilir. Əsas risk sahələrinin məşğulluq, orta və kiçik ixracyönümlü müəssisələrin mövqeyi, regional banklar, xüsusilə də ABŞ-a ixracdan çox asılı olan Cənubi və Şərqi Çinin iqtisadi cəhətdən ən inkişaf etmiş əyalətlərində olması ehtimal olunur.

ABŞ və Çin arasında ticarət müharibəsinin gələcək perspektivləri ilə bağlı hazırkı həddindən artıq qeyri-müəyyənlik səviyyəsinə baxmayaraq, hətta onun kəsilmiş formatında belə, qlobal iqtisadiyyata və beynəlxalq ticarətə ciddi ziyan vurduğu aydındır. O qədər böyük potensial risklər yaradıb ki, nəticəsi nə olursa olsun, keçmişə sadə qayıdış olmayacaq və bu baxımdan həqiqətən qaliblər olmayacaq.

## Tarif müharibəsində asan qələbə yoxdur

Çin iqtisadiyyatı ilə tarif qarşıdurmasında ABŞ-ın qələbəsi ilə bağlı hələ heç bir əlamət yoxdur. Amerika mənbələri ABŞ-ın Çinə qarşı maliyyə müharibəsi modelləşdirməsinin mənfi nəticələrini bildirir. Pekin ABŞ prezidenti Donald Trampın ticarət müharibəsi ilə bağlı mühüm rəsmi beynəlxalq tənqidləri təmin edib. Eyni zamanda, hətta Vaşinqtonun yaxın iqtisadi müttəfiqləri də ABŞ-ın özündən nümunə götürərək Çinlə ticarəti kəsməyə hazır deyillər. Ticarət müharibəsinin davam etməsi ssenarisində Rusiya sənayenin daha da pisləşəcəyini, eləcə də idxal gəlirlərinin azalmasını gözləyə bilər.

Lakin yeni həftənin əvvəlində Pekinin ABŞ ilə tarif qarşıdurmasında qalib gəlmək şansının artdığına dair sübutlar var idi. Amerikalı jurnalistlərin fikrincə, ABŞ Müdafiə Nazirliyi Çinlə iqtisadi müharibənin perspektivlərini qiymətləndirmək üçün bir növ müharibə oyunları keçirib. Münaqişə simulyasiyasında hər iki tərəfdən generallar əvəzinə xüsusi dəvət olunmuş bankirlər və investisiya fondunun menecerləri iştirak edib. Eyni zamanda, "Amerika tərəfi daim itiririb", çünki çinlilər Amerika xəzinəsini "quruda" bilər və dollara da zərbə vura bilərdilər. Nəticədə, simulyasiyada ABŞ üçün ən yaxşı nəticə Pekinin tələblərinə əməl etmək olub. Eyni zamanda, Amerika mənbələri belə bir iqtisadi münaqişənin ssenarilərindən birinin artıq reallaşdığını bildirir.

İndiyədək Vaşinqtonun tarifləri artırmasına cavab olaraq Pekin öz mövqeyi üçün beynəlxalq strukturlardan dəstək almağa üstünlük verib. Həm də amerikalıların təşkil etməyə çalışdıqları ticarət təcridindən və blokadadan qaçmağa çalışır. Ümumdünya Ticarət Təşkilatının (ÜTT) rəsmiləri indiyədək Amerika ticarət siyasətini birbaşa tənqid etməkdən yayınıblar. Lakin Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (UNİDO) daha qəti mövqe tutmuşdur.

"Biz ölkələrin öz inkişaf yollarını formalaşdırmaq üçün suveren hüquqlarına hörmətlə yanaşırıq, lakin biz hamıya fayda verən ədalətli və davamlı ticarət sistemlərini qətiyyətlə dəstəkləyirik", - ŞƏT-in baş katibi Nurlan Yermekbayev Sinxua agentliyinə müsahibəsində bildirib. O, ŞƏT-in ÜTT-nin mərkəzi rol oynadığı şəffaf, açıq, demokratik və hüquqa əsaslanan beynəlxalq ticarət sisteminin qurulmasına qətiyyətlə sadiq olduğunu vurğulayıb.

UNIDO həmçinin ABŞ-ın tarif artımının qlobal iqtisadi inkişafa və sənaye artımına mənfi təsirindən narahatlığını ifadə edib. BMT agentliyi deyir ki, tarif artımları "yanlış yanaşmadır", çünki onlar nəzərdə tutulan nəticələrə nail olduqlarını göstərən sübut olmadan hesablanır və tətbiq edilir. ABŞ-ın yeni tarifləri sənaye istehsalının maya dəyərini artırır, bununla da iqtisadi səmərəliliyi azaldır, ticarətdən əldə olunan gəlirləri azaldır və rəqabət qabiliyyətini zəiflədir. UNIDO qeyd edib ki, bu cür siyasətlər son nəticədə bütün dünyada iş yerlərini təhdid edəcək və ən həssas ölkələr ən çox zərbə alacaq. Bundan əlavə, yüksək tariflər geosiyasi gərginliyin və qeyri-müəyyənliyin artmasına səbəb olacaq. "Sənaye ticarətinə maneələr yaratmaq əvəzinə, məqsəd daha ədalətli və daha davamlı qlobal iqtisadiyyat olmalıdır", deyə UNIDO-nun Baş Direktoru Gerd Müller bildirib.

Vaşinqton Çin əleyhinə yeni ticarət tədbirləri tətbiq etməyə davam edir. Ötən cümə axşamı ABŞ Ticarət Nümayəndəliyi oktyabr ayında başlayacaq və növbəti üç il ərzində tədricən artacaq Çin istehsalı olan gəmilərə liman rüsumlarının tətbiq edilməsi haqqında sərəncam verib. "Gəmilər və gəmiçilik Amerikanın iqtisadi təhlükəsizliyi və ticarətin sərbəst axını üçün həyati əhəmiyyət kəsb edir. Tramp administrasiyasının hərəkətləri Çinin hökmranlığını geri qaytarmağa, ABŞ-ın təchizat zəncirinə olan təhdidləri aradan qaldırmağa və ABŞ-da istehsal olunan gəmilərə tələbat siqnalı göndərməyə başlayacaq", - ABŞ-ın ticarət müzakirəçisi Jamison Greer bildirib. ABŞ-ın yeni qaydalarına əsasən, ödəniş ilk 180 gün ərzində sıfır olacaq və sonra gəminin xalis tonajına əsasən tutulacaq, lakin hər gəmi üçün ildə beş dəfədən çox olmayacaq. Eyni zamanda, Çin şirkətlərinə məxsus gəmilər üçün rüsumların məbləği digər ölkələrin yükdaşıyıcılarına nisbətən xeyli yüksək olacaq.

Birinci mərhələ çərçivəsində Birləşmiş Ştatlar Çində inşa edilən və Çin şirkətlərinə məxsus gəmilərdən oktyabrın 14-də xalis registr tonu (2,83 kubmetr) üçün 50 dollar ödəməyə başlayacaq. Bu ödəniş 17 apreldə hər il 30 dollar artaraq 2028-ci ilə qədər 140 dollara çatacaq. Çində inşa edilən, lakin digər ölkələrdəki şirkətlərə məxsus gəmilər üçün rüsum hansı ton və ya konteynerə görə daha yüksək olacaq. Ödəniş hər xalis registr tonu üçün 18 dollardan başlayacaq və ildə 5 dollar artaraq 2028-ci ilin aprelində 33 dollara çatacaq. Konteyner haqqı hər vahid üçün 120 dollardan başlayacaq və 2028-ci ildə tədricən 250 dollara yüksələcək.

Bundan əlavə, Birləşmiş Ştatlar hüdudlarından kənarda inşa edilən bütün avtomobil daşıyıcıları oktyabrın 14-dən etibarən hər vahid üçün 150 ABŞ dolları rüsum ödəyəcəklər. Eyni zamanda, gəmiçilik şirkəti bu müddət ərzində tutumu konteyner gəmisinə ekvivalent və ya ondan artıq olan Amerika istehsalı olan gəmi üçün sifariş verərsə və onu artıq istifadəyə vermişsə, rüsumda üç ilə qədər möhlət əldə edə biləcək. Reuters agentliyinin məlumatına görə, yeni tədbirlər ABŞ daxilində yük daşıyan Çin istehsalı olan gəmilərə təsir etməyəcək. CNBC qeyd edir ki, kömür və ya taxıl kimi ixrac malları və Amerika limanlarına gələn boş gəmilər də vergidən azad ediləcək.

İkinci mərhələ üç ildən sonra başlayacaq və ABŞ-da mayeləşdirilmiş təbii qaz (LNG) daşıyan gəmilərin tikintisini stimullaşdırmaq məqsədi daşıyacaq. Üç ildən sonra qüvvəyə minəcək və 22 il ərzində tədricən artacaq tədbirlərə xarici gəmilərdə LNG-nin daşınmasına qismən məhdudiyyətlər daxildir. Vaşinqton ticarət tərəfdaşlarına Çinlə ticarətlərini azaltmaq üçün təzyiq göstərmək üçün tarif danışıqlarından istifadə etməyi planlaşdırır.

**V.VƏLİYEV**

# Sergey Markov: “Rusiya Azərbaycanın Çinlə strateji əməkdaşlığını dəstəkləyir”

***Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov Azərbaycan Prezidentinin Çinə tarixi səfərini “Moskva-Baku” portalı üçün şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

**- Sergey Aleksandroviç, Azərbaycan Prezidentinin Çinə səfərini necə şərh edə bilərsiniz?**



- Azərbaycan üçün belə bir səfər son dərəcə vacibdir, çünki bu, ölkənin beynəlxalq mövqelərini möhkəmləndirir və inkişafına daha böyük təkan verir. Bu gün dünyanın gözü Çindədir. Qərbdə bu, əsas təhlükələrdən biri hesab olunur. Pekinlə münasibətlərin möhkəmləndirilməsi Rusiya üçün son dərəcə vacibdir. Çinin Azərbaycana maraq nümayiş etdirməsi isə Azərbaycanın dünyada artan rolundan xəbər verir.

Təbii ki, strateji tərəfdaşlığa dair hərtərəfli bəyanatın qəbulu İlham Əliyevin Çinə səfərinin əsas nəticəsidir. Sənəd iki ölkə arasında əməkdaşlığın geniş spektrini əhatə edir: ticarət-iqtisadi və nəqliyyat sahələrində, enerji, təhlükəsizlik sahəsində, ərazi bütövlüyünün qarşılıqlı tanınması, daha ədalətli dünya nizamı və beynəlxalq prinsiplərə uyğunluq uğrunda mübarizədə birgə müqavimət göstərməyə hazır olması qeyd olunur, eyni zamanda geopolitik reallıqlar məsələyə son dərəcə mühüm olan müasir yanaşmanı qeyd edir.



Praktiki nöqteyi-nəzərdən Azərbaycanın daha böyük ölçüdə nəhəng Çin bazarını açmaq imkanı var ki, bu da son nəticədə müxtəlif sənaye sahələrinin açılmasını, o cümlədən ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artırılmasını nəzərdə tutur. Bundan əlavə, Çinlə əməkdaşlıq Azərbaycana böyük sərmayədir.

Azərbaycan Çin üçün maraqlı tərəfdaşa çevrilir. Bu, bir neçə səbəbə görə Çin üçün maraqlıdır. Birincisi, Çin ABŞ-ın tarif müharibələrinə qarşı koalisiya qurmağa çalışır. İkincisi, Çin Avropa ilə strateji müttəfiqlik yaratmağa çalışır. Və burada Azərbaycan Aİ-nin enerji siyasətində liderlərdən biri kimi öz töhfəsini verə bilər. Üçüncüsü, Azərbaycan Çinin çoxqütblü dünya konsepsiyasını dəstəkləyir. Bu o deməkdir ki, Azərbaycan ÇXR-in siyasətini dəstəkləyir ki, müxtəlif xalqlar öz inkişaflarını sürətləndirmək üçün müxtəlif siyasi sistemlərdən istifadə etməlidirlər və onların demokratiya anlayışı ilə bağlı avropalıların və amerikalıların sınağından mütləq keçməli deyillər.

Nəhayət, İlham Əliyevin əvvəllər də Çinə dövlət səfərində olmasına baxmayaraq, bu gün Bakı ilə Pekin arasında münasibətlər daha çox intensivləşib. Bakı üçün bu, beynəlxalq arenada irəliyə doğru böyük sıçrayışı simvollaşdırır.

Təbii ki, çoxqütblü dünya quruculuğu və beynəlxalq təhlükəsizliyin təmin edilməsi istiqamətində Azərbaycan ilə Çin arasında qarşılıqlı fəaliyyət Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqelərinin yüksəldilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

**- İlham Əliyev Si Cinpinlə danışıqlar zamanı başqa dillərdə danışmaq imkanı olsa da, rus dilində danışırdı. Belə bir addımın mahiyyəti nədir?**

- İlk növbədə Si Cinpin rus dilini yaxşı başa düşür, ona görə deyərdim ki, onları birləşdirən dil rus dilidir. İkincisi, bu, iki ölkə üçün açıq-aydın müstəqillik siqnalı, Qərb üçün bir siqnal idi. Moskvada isə Bakı ilə Pekin arasında belə təmaslar çox müsbət qarşılanır; Onlar Moskvanın strateji maraqlarına cavab verir.

***Tərcümə - Elçin Bayramlı***



# Azərbaycan bu ölkələrlə iqtisadi-ticarət əlaqələrini möhkəmləndirir



***"Dövlət-özəl tərəfdaşlığı üzrə də fəallığı artırmaq önəmlidir. Bu müstəvidə artıq dəniz suyunun duzsuzlaşdırılması ilə içməli su istehsalı layihəsinin icrasına başlanıb. Biznes nümayəndələrinin təşəbbüsləri dövlət-özəl tərəfdaşlığı üzrə yeni və gəlirli innovativ layihələrin gerçəkləşməsinə səbəb olardı. Bu sahədə aktivlik özəl sektora yeni bazarlar, texnologiya və innovasiyaya çıxışda böyük imkanlar, yeni məhsul və xidmətlər yaranar".***

MÜNASİBƏT

SİA xəbər verir ki, bu sözləri İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə ”Sahibkarlar günü”nə və 2025-ci il Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş “Konstitusiya və Suverenlik - Azərbaycanda sahibkarlığın inkişafı” mövzusunda konfransda İqtisadiyyat Nazirliyinin birinci müavini Elnur Əliyev deyib.

Onun sözlərinə görə, ölkəmiz beynəlxalq maliyyə institutları və inkişaf tərəfdaşları ilə əməkdaşlıq çərçivəsində də sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması və KOB-ların dəstəklənməsi istiqamətində mühüm işlər görür: ”Dünya Bankı, İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və digər tərəfdaşların texniki və maliyyə dəstəyi nəticəsində bir sıra proqram və layihələr həyata keçirilir. Bu proqramlar çərçivəsində sahibkarlara güzəştli maliyyə alətlərinə çıxış, biznes bacarıqlarının artırılması, rəqəmsal transformasiya və yaşıl iqtisadiyyata keçid istiqamətində dəstək göstərilməsi nəzərdə tutulur. Xüsusilə, KOB-ların rəqabətqabiliyyətliliyinin artırılması, innovativ və ixracyönümlü fəaliyyətlərinin təşviqi beynəlxalq tərəfdaşlıq gündəliyinin əsas prioritetlərindəndir.

Azərbaycan ölkələrlə ikitərəfli iqtisadi-ticarət əlaqələrini daha da möhkəmləndirir. Türkiyə və Pakistanla Preferensial ticarət sazişləri imzalanıb. Bu sazişlərə əsasən tərəfdaş ölkələrlə müəyyən edilmiş məhsullar üzrə gömrük rüsumlarının azaldılması və ya tamamilə aradan qaldırılması qarşılıqlı ticarətin inkişafına təkan verir, sahibkarların ixrac imkanlarını artırır.

Ölkəmizin investisiya mühitini inkişaf etdirmək məqsədilə Özbəkistan, Qırğızıstan, Qazaxıstan, BƏƏ ilə birgə investisiya fondları yaradılıb. Həmçinin Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan tərəfindən təsis olunan Türk İnvestisiya Fondu qarşılıqlı iqtisadi əməkdaşlığı gücləndirmək, strateji sahələrə investisiyaları artırmaq və regional inkişafı dəstəkləmək məqsədi daşıyır. Sahibkarlar təşəbbüslərini artıraraq, bu beynəlxalq maliyyə mexanizmlərindən faydalana, tərəfdaş ölkələrlə birgə layihələr icra edə, bizneslərini genişləndirə bilərlər.

Ölkəmizin xarici iqtisadi-ticarət əlaqələrinin genişlənməsi də sahibkarlarımız üçün əlavə imkanlar açır. Elə bu günlərdə ölkə başçısının Çinə səfəri çərçivəsində iki ölkə arasında Strateji Tərəfdaşlığın Genişləndirilməsi haqqında Bəyannamənin imzalanması, vizasız rejimin tətbiqi, həmçinin, hüquq, yaşıl inkişaf, alternativ enerji, rəqəmsal iqtisadiyyat, intellektual mülkiyyət və aerokosmik sahələrdə 20-yə yaxın əməkdaşlıq sənədinin imzalanması Azərbaycanın Asiya bazarına çıxması, regionu yaxından tanıması və yeni əməkdaşlıqlar qurması baxımından çox əhəmiyyətlidir. Qeyd edək ki, elə bu ay İqtisadiyyat Nazirliyinin dəstəyi ilə Çinə təşkil edilmiş səfər çərçivəsində Çin şirkətləri ilə imzalanmış investisiya layihələrinin ümumi həcmi təxminən 335 milyon ABŞ dolları təşkil edir ki, bu da ölkəmizin iş adamları üçün yeni fürsətlər yaradır”.

***Xeyrənsə Piriyeva***

# Çin - Azərbaycan əlaqələri strateji müttəfiqlik müstəvisinə yüksəlir

Təhlil

***Bugünkü reallıq ondan ibarətdir ki, aparılan düzgün, əsaslı siyasət nəticəsində Azərbaycan dövləti dünya miqyasında sayılan, seçilən, hörmət göstərilən dövlətlərdən biridir. Bu baxımdan beynəlxalq təşkilatlar, ayrı-ayrı dövlətlər Azərbaycanla qarşılıqlı etimad əsasında siyasi, iqtisadi, diplomatik əlaqələr qurmağa, əməkdaşlıq müqavilələri imzalamağa daha çox maraq göstərirlər. Haqlı olaraq Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın beynəlxalq arenada özünə layiq yerini tutduğunu bildirib: " Xarici tərəfdaşlarımızın, dostlarımızın sayı gündən-günə artır. Azərbaycan çox gözəl beynəlxalq imicə malikdir. Bizim bütün xarici siyasətimiz bir məqsədi güdür ki, Azərbaycanın milli maraqları maksimum dərəcədə təmin olunsun, Azərbaycan dövləti güclənsin və Azərbaycan xalqı daha da yaxşı yaşasın".***

Azərbaycanın beynəlxalq aləmdə qazandığı uğurlar, xüsusən də dünyanın aparıcı ölkələri ilə milli maraqlara əsaslanan yüksək səviyyəli münasibətləri ölkəmizə yeni-yeni nailiyyətlər gətirir. Təbii ki, qazanılan uğurlar, əldə olunan nailiyyətlər dövrün tələbinə uyğun olaraq hər dəfə yenilənir və bu da əlaqələrin daha da möhkəmlənməsinə təkan verir. Çin Xalq Respublikası ilə Azərbaycan arasında əlaqələrin müasir dövrün tələbinə uyğun olaraq yenilənməsi hər iki dövlətin və xalqlarının mövcud əlaqələrinin inkişafına təkan verir. Çin Xalq Respublikası Azərbaycanın dövlət müstəqilliyinin ilk tanıyan və əməkdaşlıq münasibətlərinin qurulmasında maraqlı olduğunu bəyan edən dövlətlərdəndir. Mövcud əlaqələrin genişləndirilməsi məqsədilə 2009-cu ilin mayında Hökumətlərarası İqtisadi Komissiya yaradılıb. 2012-ci ildə Pekində, Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi ilə Çinin Kommersiya Nazirliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Həmçinin Azərbaycan 2016-cı ildə Asiya İnfrastruktur İnvestisiya Bankına üzv olaraq beynəlxalq iqtisadi layihələrə daha sıx inteqrasiya edib.

### "Bir kəmər, bir yol"

Azərbaycanın "Bir kəmər və bir yol" təşəbbüsünə verdiyi önəm 2017-ci ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı ilə öz təsdiqini tapıb. Bu mühüm layihə həm Azərbaycan, həm də Çin üçün iqtisadi əlaqələrin daha da möhkəmlənməsinə və regional ticarət marşrutlarının inkişafına xidmət edir. Çin hökuməti bu dəmir yolunun istifadəyə verilməsini və tikintisində Azərbaycanın oynadığı mühüm rolu yüksək qiymətləndirib. Çin həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat marşrutlarının kəsişməsində yerləşən Azərbaycanla əməkdaşlığa böyük diqqət ayırır. Bu əməkdaşlıq yalnız iki ölkə arasındakı əlaqələri möhkəmləndirməklə məhdudlaşmır, həm də regional və qlobal iqtisadi inteqrasiyanı gücləndirmək üçün mühüm amildir. Orta Dəhliz Avropa və Mərkəzi Asiyanı Xəzər dənizi vasitəsilə Çinlə birləşdirən etibarlı və təhlükəsiz marşruta çevrilib. Azərbaycan ilə Çin arasında tranzit daşımaların həcmi 2024-cü ildə 378 min ton olub və bu göstərici 2023-cü illə müqayisədə 86 faiz çoxdur. 2024-cü il ərzində Çindən Azərbaycana ixrac və tranzit rejimində Orta Dəhlizlə 287 marşrut qatarı yola salınıb.

2022-ci ilin sentyabrında, Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənddə keçirilən Sammiti zamanı Azərbaycan Prezidenti İlham Əliyev ilə Çin Sədri Si Cinpin arasında keçirilən görüşdə iki ölkə arasındakı münasibətlərin gələcək inkişaf istiqamətləri müəyyənləşdirilib. 2023-cü ilin əvvəlindən isə yüksəksəviyyəli ikitərəfli mübadilələrin yeni dalğası başlayıb, qarşılıqlı səfərlər davam edib. Ötən müddət ərzində iki dövlət arasında əlaqələr qarşılıqlı faydalı tərəfdaşlıq və dostluq prinsipləri əsaslanıb və inkişaf etdirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpin iki ölkə arasında əlaqələrin inkişafına böyük önəm verirlər. Dövlət başçılarının siyasi iradəsi nəticəsində iki ölkənin milli maraqlarına əsaslanan məqsədyönlü fəaliyyət həyata keçirilib, çoxsaylı müqavilələr imzalanıb. 2024-cü ilin iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin qəbulu çox önəmli addım kimi böyük əhəmiyyətə malikdir. Bəyannamədə qeyd edildiyi kimi, tərəflər siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı genişləndirməyə, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti gücləndirməyə, iki ölkənin ümumi maraqlarını birgə qorumağa, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini irəlilətməyə dair razılıq əldə etmişlər. Prezident İlham Əliyev sözügedən müsahibəsində Birgə Bəyannamənin tarixi əhəmiyyət daşıdığını diqqətə çatdıraraq bu sənədin Azərbaycan-Çin münasibətlərində yeni səhifə açdığını qeyd edib. 2025-ci il aprelin 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çinin nüfuzlu Sinxua agentliyinə verdiyi müsahibə, Azərbaycan-Çin münasibətlərinin strateji xəttini, gələcək prioritetlərini geniş və əhatəli şəkil də nümayiş etdirdi. Müsahibədə Azərbaycan-Çin əməkdaşlığının beynəlxalq əhəmiyyət daşıdığı , iki ölkənin əlaqələrinin qlobal miqyas aldığını göstərdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il aprelin 22-də Çin Xalq Respublikasına dövlət səfəri əlaqələrin daha da genişlənməsinə töhfə verəcəkdir. Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına səfəri çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşları vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş", "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi ilə Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyi arasında humanitar minatəmizləmə sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu", "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Müqavilə", "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında "Bir kəmər, bir yol" təşəbbüsünün birgə təşviqi üzrə Əməkdaşlıq Planı" və digər sənədlər imzalanıb.

Ölkələrimiz arasında bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün böyük imkanlar var və artıq Azərbaycanın müvafiq qurumları ilə Çin şirkətləri arasında bu sahədə çoxsaylı sənədlər imzalanıb, Ticarət dövriyyəsi son dövrlərdə 20 faizdən çox artıb. Bərpaolunan enerji sahəsində əməkdaşlığa dair isə 6 sənəd imzalanıb. Bu sənədlər ümumilikdə 260 meqavat gücündə günəş elektrik stansiyaları, 100 meqavatlıq üzən günəş elektrik stansiyası, 30 meqavat gücündə batareya enerji saxlanc sistemi, dənizdə minimum 2 qiqavat gücündə külək elektrik stansiyasının inşası, daha 2 meqavat gücündə külək enerjisi layihəsinin inkişafı, eləcə də bərpaolunan enerji və elektrik enerji sisteminin planlaşdırılması üzrə əməkdaşlığı əhatə edir. İmzalanan sənədlər sırasında İnvestisiya Müqaviləsi Qobustan rayonunda 100 meqavat gücündə günəş elektrik stansiyasının tikintisini və istismarını nəzərdə tutur. 2026-cı ildə istismara verilməsi nəzərdə tutulan stansiyada hər il təxminən 180 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 39 milyon kubmetr həcmində təbii qaza qənaət etməklə yanaşı, atmosferə atılan karbon emissiyalarını 86 min ton azaltmağa imkan verəcək. Bu layihə üzrə Çin şirkəti ilə əməkdaşlıq hərrac vasitəsi ilə müəyyənləşdirilib.

"Bərpaolunan enerjinin inkişafı və elektrik enerji sisteminin planlaşdırılması"na dair Anlaşma Memorandumu isə Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu arasında imzalanıb. Memorandum 2028-ci ildən sonrakı dövr üzrə bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyası ilə əlaqədar ötürücü şəbəkədə müvafiq araşdırmaların aparılmasını nəzərdə tutur. Araşdırmaların nəticələrinə əsasən, texniki və iqtisadi baxımdan səmərəli həllərin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması planlaşdırılır. İmzalanan bu və ya digər sənədlər dövlətlərarası bərpaolunan enerji sahəsində əməkdaşlığa öz töhfəsini verəcəkdir

### Əlaqələrin inkişafına təkan verəcək tarixi görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə geniş tərkibdə görüşü zamanı ötən il Astanada keçirilmiş görüş əsnasında ölkələrimiz arasında strateji tərəfdaşlığa dair qəbul olunan birgə bəyanat məmnunluqla xatırlandı. Sözügedən sənəddə qarşılıqlı hörmət, bərabər səviyyədə etimad, bir-birinə dəstək və əməkdaşlıq prinsiplərinə əsaslanan strateji tərəfdaşlığın qurulması ifadə olunub. Bu, iki ölkə arasında münasibətlərin tarixində mühüm mərhələni təşkil edən sənəddir. Əməkdaşlığı gələcəkdə də genişləndirmək, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti möhkəmləndirmək, iki ölkənin ümumi maraqlarını birlikdə müdafiə etmək, eləcə də regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini birgə təşviq etmək kimi məsələlər yer almışdır. Qəbul olunan Bəyanat ÇXR və Azərbaycanı rəsmi strateji tərəfdaşlara çevirib. Görüş zamanı ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, Şanxay Əməkdaşlıq Təşkilatı və digər təsisatlar çərçivəsində əməkdaşlıq məsələlərinə və qarşılıqlı dəstəklərinə toxunulub.

Çin Xalq Respublikasının Sədri Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsinə (AQEM) sədrliyini məmnunluqla vurğulayaraq, bu xüsusda əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirib. Görüşdə Azərbaycanın və Çinin daim bir-birlərinin ərazi bütövlüyünü



*Eldar İbrahimov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İntizam komissiyasının sədri, professor*

və suverenliyini dəstəklədikləri məmnunluqla vurğulanıb. Dövlətimizin başçısı "Vahid Çin" siyasətini həmişə dəstəklədiyini və Tayvanda keçirilmiş seçkiləri birmənalı şəkildə pislədiyini qeyd edib. Azərbaycan və Çinin terrorizm, ekstremizm və separatizmə qarşı birgə səylərlə mübarizəsi qeyd olunub.

Si Cinpin COP29-un Azərbaycanda uğurla keçirilməsi və Qlobal Cənubun maraqlarının təmsil olunması baxımından Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirib. Görüşdə Hökumətlərarası Komissiyanın sonuncu iclasına toxunulub, humanitar və mədəni sahələrdə əməkdaşlıq məsələləri diqqətə çəkilib.

Hər iki dövlət başçısı diplomatik münasibətlərin qurulmasından ötən 33 il ərzində Azərbaycan-Çin əlaqələrinin inkişafındakı nailiyyətləri yüksək qiymətləndirib və səmimi, dostluq mühitində danışıqlar aparıblar. Dövlətlər bir-birini prioritet təşkil edən, etibarlı və qarşılıqlı faydalı strateji tərəfdaş kimi nəzərdən keçirdiyini təsdiq edərək, qarşılıqlı siyasi etimadı daim möhkəmləndirməyə, qarşılıqlı dəstəyi gücləndirməyə, hər iki ölkənin xalqlarının mənafeyi naminə hərtərəfli əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını ifadə edərək, hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması barədə yekdilliklə qərar qəbul ediblər. Bəyanatda qeyd olunur ki, tərəflər xalqların seçdiyi və milli şərtlərə uyğun olan inkişaf yolunu seçməkdə bir-birini möhkəm dəstəkləyir, hər iki ölkənin təməl maraqlarının, suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunmasında bir-birinə qətiyyətli dəstək verirlər. Azərbaycan tərəfi dünyada yalnız vahid bir Çinin mövcudluğunu, Tayvanın Çin ərazisinin ayrılmaz tərkib hissəsi olduğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu tanıyır. Çin Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və qarşıdurmaya yönəlmiş geosiyasi oyunları qeyri-məhsuldar hesab edir. Sənəddə o da qeyd olunur ki, tərəflər müasirləşməni birgə şəkildə irəli aparmaq və daha yüksək səviyyəli, yüksək dayanıqlılıq və uzunmüddətli sabitliyə malik yeni birgə inkişaf məkanı yaratmaq üçün "Bir kəmər, bir yol" təşəbbüsünün Azərbaycanın "İpək Yolunun dirçəldilməsi" dövlət inkişaf strategiyası və 2030-cu ilə qədər olan sosial-iqtisadi inkişaf Strategiyası ilə uyğunlaşdırılmasını möhkəmləndirmək barədə razılaşıblar.

Bir sözlə, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında bütün sahələri əhatə edən əməkdaşlıq əlaqələri mövcuddur. Bu əlaqələr Prezident İlham Əliyevin Çinə səfəri zamanı keçirdiyi yüksək səviyyəli görüşlər, dövlətlərarası müqavilələrin imzalanması ilə daha da genişlənəcək. Bütün bunlar Çin-Azərbaycan əlaqələrinin strateji müttəfiqlik müstəvisinə yüksəldiyini göstərir. Təbii ki, əlaqələrin möhkəmlənməsi, münasibətlərin daha sabit və davamlı olmasından qazanan hər iki dövlət və xalqlarıdır.

# Pakistan-Hindistan qarşıdurması nüvə müharibəsinə gətirib çıxara bilər

*70 ilə yaxındır ki, Kəşmirdə silahlar susmur*

***Dünyada onsuz da gərgin olan siyasi, diplomatik vəziyyət, bəzi regionlarda müharibələrin, münaqişələrin baş verməsi ilə daha da gərgin xarakter ala biləcəyi ehtimallarını yaradır. Xüsusilə də, son günlər Pakistanla Hindistan arasında yaranan gərginlik bəzi analitikləri bölgədə yenidən ağır silahların işə düşə biləcəyi ilə bağlı fikirlər səsləndirirlər. Səbəb isə aprelin 22-də Cammu və Kəşmirdə turistlərə və mülki şəxslərə edilən silahlı hücumlar göstərilir. Bu barədə The New York Times yazır ki, hücumun məsuliyyətini Pakistandan fəaliyyət göstərən Müqavimət Cəbhəsi öz üzərinə götürüb.***





Pakistanlı analitik Syed Muhammad Ali vəziyyətin 2019-cu ildəkindən daha ciddi olduğunu bildirib və Hindistanın bu eskalasiyanı ABŞ-la danışıqlarda alət kimi istifadə edə biləcəyini deyib. Hücum nəticəsində 26 nəfər həyatını itirib, ölənlərin çoxu turist olub. Məlumata görə, 2000-ci ildən bəri Kəşmirdə radikalların ən ölümcül hücumu təşkil edilib. Hücum zamanı insanlar Himalay dağlarının ətəklərində turistlər arasında məşhur olan və təbii gözəlliyinə görə "Hindistan İsveçrəsi" kimi tanınan çox mənzərəli çəmənliklərdə dincəlirmişlər. Hücumun baş verməsindən dərhal sonra fövqəladə vəziyyət bölgəsinə əlavə polis qüvvələri və Hindistan silahlı qüvvələrinin xüsusi təyinatlıları yerləşdirilib.

Hindistan tərəfinin sərt açıqlamalarla çıxış etməsi və Pakistana qarşı hücum təşkil etməsi vəziyyətin kritik xarakter almasına gətirib çıxarıb. Aprelin 25-də baş verən toqquşmalar zamanı Pakistanın hava hücumuna qarşı müdafiə qüvvələri tərəfindən Hindistana aid hərbi hava qüvvələrinin bir təyyarəsinin vurulduğu qeyd olunur. Həm də atışmalar nəticəsində Hindistan ordusunun 4 əsgəri öldürülüb, 10-u yaralanıb. Pakistanın müdafiə naziri Həvac Asif ölkəsinin Hindistan tərəfindən hücum ehtimalına hazırlıq gördüyünü və belə bir hücuma tam gücü ilə cavab verəcəyini bəyan edib. Pakistanın Baş naziri Şahbaz Şərif Hindistanın Cammu və Kəşmir bölgəsinə hücumlarından sonra rəsmi Dehlinin bölgədə yeni gərginliyin yaradılmasına rəvac verən addımlar atmasına savab tədbirləri görmək məqsədi ilə Milli Təhlükəsizlik Şurasının iclasını keçirib. İclasdan sonra Baş Nazirlikdən yayılan açıqlamada Hindistanın Hind Su Müqaviləsini dayandırmaq qərarı rədd edilib: "Hind hövzəsində su axınının dayandırılması və ya istiqamətinin dəyişdirilməsinə yönəlmiş istənilən cəhd "müharibə aktı" kimi qiymətləndiriləcək və buna tam güclə cavab veriləcək". Suyun mənbəyindən kəsilməsi Pakistanın sıx məskunlaşdığı əyalətlərində quraqlığa və kütləvi qıtlığa səbəb ola bilər.

### Dünya birliyi Hindistan-Pakistan münasibətlərinin gərginləşməsindən narahatlıqlarını ifadə ediblər

Pakistan rəsmi dairələri Hindistanla Vagah Sərhəd Qapısının bağlanacağı barədə xəbərdarlıq edib. Bununla yanaşı, Hindistan vətəndaşlarına verilən bütün vizalar ləğv olunub. Eyni zamanda, İslamabaddakı Hindistan diplomatlarının sayı 30-a endirilib, Hindistanın müdafiə, dəniz və hava məsləhətçilərindən isə aprelin 30-dək ölkəni tərk etmələri tələb olunub. Pakistanın hava məkanı Hindistana məxsus və ya Hindistan tərəfindən idarə olunan aviaşirkətlər üçün bağlanıb. Həmçinin Hindistanla bütün ikitərəfli iqtisadi-ticarət əlaqələri dayandırılıb və üçüncü ölkələr vasitəsilə Pakistan mallarının Hindistan bazarına tədarükü əngəllənib.

Hindistan tərəfi də Pakistanın Yeni Dehlidəki səfirliyindəki bütün hərbi attaşeləri personae non-qrata elan edib və Pakistan vətəndaşlarının yarıdan çoxunun ölkədən çıxarılması barədə məlumat yayıb. Hindistanda olan pakistanlıların vizaları ləğv edilib və onlara ölkəni tərk etmək üçün 48 saat vaxt verilib. Bununla yanaşı Pakistan vətəndaşlarının Hindistana daxil olması qadağan edilib. Eyni zamanda Hindistan hakimiyyəti öz vətəndaşlarını Pakistanı tez bir zamanda tərk etməyə çağırıb. Daha çox gələcək. Dehlinin təşəbbüsü ilə Hindistan-Pakistan sərhədindəki əsas Attari keçid məntəqəsi bağlanır. Ciddi hesab olunan problemlərdən biri də ondan ibarətdir ki, Hindistan və Pakistan arasında su ehtiyatlarının bölüşdürülməsinə dair saziş ləğv olunur. Söhbət 1960-cı ildə Hindistanın ovaxtkı baş naziri Cəvahirləl Nehru tərəfindən pakistanlı həmkarı general Əyyub Xan ilə bağlanmış və hətta son üç Hind-Pakistan müharibəsi zamanı da qüvvədə qalmış Hind Suları Müqaviləsi adlanan müqavilədən gedir. Təbii ki, Hindistanın bu müqavilədən çıxması bölgədə ciddi ekoloji problemlər yaratmaqla yanaşı, əhalinin və kənd təsərrüfatının su ilə təminatında ciddi problemlər yarada bilər. Çayın mənbəyi Hindistan ərazisində olduğundan, müəyyən şərtlər altında Pakistan əyalətlərində quraqlıq və aclıq yarada bilər.

Bu cür radikal addımlar Yeni Dehlinin problemi danışıqlar yolu ilə deyil güc və təzyiq vasitəsi ilə aradan qaldırmağa çalışdığını göstərir. Söz yox mətin və qəhrəman Pakistan xalq bu cür ucuz metodlarla geri çəkilə bilməz və öz haqqını, ədalətli mövqeyini sona qədər müdafiə edəcək. Bu arada BMT və dünyanın bir sıra ölkələri Hindistan-Pakistan münasibətlərinin gərginləşməsindən narahatlıqlarını ifadə ediblər. Rusiyanın xarici işlər naziri Sergey Lavrov tərəfləri problemi dialoq yolu ilə aradan qaldırmağa çağırıb. Sergey Lavrov bildirib ki, tərəflər istəsələr sərhəd münaqişəsinin həlli üçün Moskva Hindistan və Pakistana danışıqlar platforması verməyə hazırdır. ABŞ, Böyük Britaniya, Çin və Avropa İttifaqı da tərəfləri atəşkəsə və dialoqa çağıran açıqlama ilə çıxış ediblər. Hadisələrin gərginləşən xətlə inkişaf etməsi, onu deməyə əsas verir ki, Hindistan və Pakistan dünya birliyinin aparıcı dövlətlərinin çağırışlarına əməl etmək fikrində deyillər. Bu isə dağıdıcı müharibənin, hətta nüvə müharibəsinin baş verə biləcəyi ehtimallarını yaradır. Nəzərə almaq lazımdır ki, Hindistan və Pakistan nüvə silahına sahib dövlətlərdir. Hər iki dövlətin rəsmi şəxsləri dəfələrlə bir-birini nüvə silahı ilə hədələyiblər. Əgər dağıdıcı müharibə bütün gücü ilə baş verərsə, o zaman södən əmələ keçid edilər və nüvə silahından tətbiq edilər. Bu isə nəinki bögənin, ümumilikdə dünyanın sonunu gətirə bilər.

### Mübahisəli bölgə yeni müharibə ocağı yaradır

Hazırkı mərhələdə tərəflər arasında növbəti dağıdıcı qarşıdurmanın baş verməsinə səbəb olan Kəşmir bölgəsi 70 ilə yaxındır ki, sabitliyin və sakitliyin yaşanmadığı bölgələrdən hesab olunur. Az qala 70 ilə yaxındır ki, mübahisəli bölgədə silahlar susmur. 70 ilə yaxındır ki, orada hər iki tərəfdən yüz minlərlə əsgər, döyüşçü və dinc sakin həlak olur. 1947 və 1965-ci illərdə daha böyük və qanlı müharibələr baş verib və bu zaman hər iki tərəfdən on minlərlə insan həyatını itirib. Tərəflər arasında mübahisənin əsası isə 1947-ci il də Böyük Britaniyanın ordusunu bölgədən çıxarmasından sonra qoyulub. Cammu və Kəşmir əhalisinin 65 faizini müsəlmanlar təşkil etsə də, Böyük Britaniya tərəfindən Kəşmirə təyin olunan canişin bölgənin Hindistana birləşməsi barədə bəyanatla çıxış etmişdir. Bu da iki ölkə arasında bu ərazi uğrunda mübahisələrin əsası qoyuldu. 1950-ci illərdən bəri BMT Təşlükəsizlik Şurası Kəşmirdə referendumun keçirilməsi haqqında qərar çıxarmışdır. Referenduma əsasən bölgənin hansı dövlətin ərazinə birləşməsi barədə nəticə elan olunacaqdı. Hindistan tərəfi ilk olaraq bu qərarı dəstəkləsə də, sonradan fikrini dəyişmişdir. Səbəb də onu göstərmişdir ki, Hindistanın idarə etdiyi Cammu və Kəşmirdə keçirilən seçkilərdə bölgənin Hindistana birləşməsi dəstəkləndiyindən referendumun keçirilməsinə ehtiyac yoxdur. Lakin Pakistan bununla razılaşmayaraq bildirir ki, bölgədəki əhali Hindistan tərəfindən idarə olunmaq əvəzinə müstəqil və ya Pakistanla ittifaqda olmaq istəyir. Hindistanla Pakistan arasında münasibətlər gərginləşərkən, Çin tədricən Kəşmirin şərqində Aksay Çin kimi tanınan ərazini 1950-ci illərdə işğal etdi. 1965-ci ilin ikinci Hindistan-Pakistan müharibəsindən sonra, 1980-1990-cı illərdə, Hindistanın idarəçiliyinə etiraz silahlı müqavimətə, kütləvi etirazlara və Pakistanın dəstəklədiyi silahlılardan ibarət dəstələrin fəallaşmasına gətirib çıxardı.1999-cu ildə Hindistanla Pakistanın dəstəklədiyi qüvvələr arasında qısamüddətli, lakin şiddətli münaqişə baş verdi. Döyüşlər on minlərlə adamın ölümünə səbəb olmuşdur.



### Reallıqda hindlilərin su axınına manea törətmək üçün praktiki üsulları yoxdur

Söz yox ki, hər iki dövlətin hazırkı dövrdə müasir silahlara malik olması baş verə biləcək növbəti toqquşmanın daha təhlükəli və dağıdıcı olacağından xəbər verir. Bununla belə bəzi hərbi və siyasi ekspertlər müharibənin genişlənməsi təhlükəsinin olmadığı qənaətindədirlər. Birincisi ona görə ki, hər iki dövlət dünyanın super gücü olmaq iddiasında olan Çin Xalq Respublika ilə qonşuluda yaşayırlar. Öz imicini qorumaq üçün qonşuluğunda müharibənin baş verməsinə imkan verməyəcək. İkincisi isə hər iki ölkənin nüvə silahı var və yeni gərginliyin yaranması fəlakətli nəticələrə gətirib çıxara bilər. IMEMO RAS-ın Hind Okeanı Regionu Mərkəzinin rəhbəri Aleksey Kupriyanov bildirib ki, hər iki ölkənin rəhbərliyi genişmiqyaslı müharibə istəmir, çünki onlar başa düşürlər ki, bu, nüvə silahının istifadəsinə gətirib çıxara bilər və bu, həm Hindistan, həm də Pakistan üçün fəlakət olardı: "Həm Dehli, həm də İslamabad hazırda eyni problemi həll edirlər: simasını itirmədən öz maraqlarını müdafiə etməyə hazır olduqlarını necə göstərməli, eyni zamanda düşməni real hərbi əməliyyata təhrik etməməlidir. Hindistanın nəzarətində olan baş sularından Pakistana Hind çayının axınının qarşısını almaq təhlükəsinə xüsusi diqqət yetirilib. Lakin Yeni Dehlinin Hind Suları Müqaviləsini dayandırması siyasi jestdən başqa bir şey deyil. Reallıqda hindlilərin axını manea törətmək üçün praktiki üsulları yoxdur - onların ərazidə tikdikləri kiçik su elektrik stansiyalarında hətta suyun axıdılması tənzimləyiciləri belə yoxdur".

"Qarşıdurma necə bitə bilər" sualına Aleksey Kupriyanov cavab olaraq bildirib ki, Hindistan çox güman ki, Kəşmirdə Pakistan yaraqlılarının təlim düşərgəsinə pilotsuz təyyarə ilə hücum edərək "güc nümayiş etdirəcək": "Bununla imicini qorumağa çalışacaq. Pakistan isə belə bir bəyanatla cavab verəcək ki, bu yerdə heç bir terror düşərgəsi yoxdur və heç vaxt olmayıb. Və tərəflər sakitcə təhlükəli xətdən uzaqlaşacaqlar. Növbəti hadisəyə qədər".

Bütün hallarda müharibənin baş verməsinin əleyhinəyik. Birincisi, müharibə insan ölümləri, şəhər və kəndlərin xarabazarlıqlara çevrilməsi deməkdir. İkincisi isə, müharibənin iştirakçısı Azərbaycana dost, qardaş dövlət olan Pakistan ola bilər ki, bu da bir millət olaraq bizləri narahat etməyə bilməz. Ona görə də, bizlər Pakistan xalqının yanında olmaqla, onlara səbirli və ehtiyatlı olmağı tövsiyə edirik.

**İLHAM ƏLİYEV**

# "Təxribatlar siyasi alətlər sırasında çox tez-tez istifadə olunan vasitədir"







*"Təxribatlar siyasi alətlər sırasında çox tez-tez istifadə olunan vasitədir". Bu sözləri S A-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib. O bildirib ki, burada böyük və kiçik dövlətlər müxtəlif istiqamətlərdə, müxtəlif hədəflər çərçivəsində bundan istifadə edirlər. Amma Ermənistanın fərqli cəhəti odur ki, Ermənistanın siyasəti bütövlüklə təxribatlardan ibarətdir.*

Onlar bu aləti istifadə etməkdən yorulmurlar. Əlbəttə, buna əsas səbəb ondan ibarətdir ki, Ermənistan öz xeyrini gözünün, ayağının altında görə bilmədiyindən xarici qüvvələrə pənah gətirir və onların sözü ilə oturub-durur, onların idarəçiliyinə tabe olur. Bu, ilk növbədə Ermənistanın subyektivliyini itirməsi anlamına gəlir. Çünki müstəqil dövlət heç vaxt öz müqəddəratını, taleyini başqa qüvvələrə verməz. Məhz bu zəmindədir ki, biz Azərbaycan olaraq tam müstəqil dövlətik, Ermənistandan fərqli olaraq. O artıq məcburdur, özgə qüvvələrin dediyi ilə oturub-dursun. Ona görə də, sülh müqaviləsində son mərhələdə heç Ermənistanla razılığa gələ bilmirik. Yəni burada sabotaj elementləri də var, burada süründürmə də var və s.





Nə vaxta qədər Ermənistan bunlardan istifadə edəcək? O zamana qədər ki, Ermənistan özgələrin yedəyindən düşmür, öz yerişi, öz addımı ilə hərəkət etməyə başlayacaq. Ona qədər əgər bu baş verməsə, Ermənistan həmişə təxribatların girdabında qalacaq və bölgə dövlətləri üçün də problemli şəraiti formalaşdırmaqda israrlı olacaq. Amma burada bir məsələ də var. Gərək Ermənistanın siyasi rəhbərliyi, siyasi elitası bir şeyi anlasın ki, təxribatlarla heç vaxt uzun sürən yolu keçmək olmaz. Çünki onlar istər-istəməz bumerang effekti və yenidən özünə qayıdır.

İkincisi, hədəflərə çatmaqdan ötrü təxribat yolu, hilə, yalan yol özünü doğrultmur. Hədəflərə doğru əgər onlar sağlam hədəflərdirsə, ancaq insanları, toplum və xalqları mərdlik, ədalət prinsipinə inam, ona söykənmək kimi keyfiyyətlər bu yolları asanlaşdırır. Hələ ki, biz görürük ki, Ermənistan Fransanın, Hindistanın, Yunanıstanın, digər ölkələrin diktəsi ilə hərəkət edir. Digər tərəfdən də öz ölkəsinin daxilində hakim qüvvələr heç bir şey edə bilmirlər ki, insanların həyatına bir xoş ovqat gətirsinlər, onların rifahını yüksəltsinlər, onlara ümid versinlər ki, gələcəkdə artıq biz nə Azərbaycan, nə Türkiyə, nə Gürcüstan, nə də digər ölkələr ilə müharibə müstəvisinə çıxmayacağıq. Amma məhz elə o təxribatlara meyilli olduqlarında demək olar ki, hər gün bunlar yeni toqquşmaların, münaqişəli vəziyyətlərin, ümumiyyətlə, müharibənin ehtimalını yüksəldərək gedirlər".

"İlk növbədə bu, Ermənistanın özü üçün böyük təhdiddir. Çünki biz onların dəfələrlə təxribatlarını görmüşük. Onlara tutarlı cavablar vermişik. Nəhayət, elə təxribatlar aramsız şəkildə yer aldı deyə, İkinci Qarabağ müharibəsi gündəmə gəldi. Azərbaycan hücum əməliyyatını Prezident İlham Əliyevin əmri ilə həyata keçirdi. Biz öz sözümüzü dünya birliyi qarşısında inamlı şəkildə dedik. Ermənistan bu təxribatların son nəticəsindən gərək özü üçün məntiq çıxara bilsin. İnsanlar səhv edirlər, amma səhvlər müvəqqəti olanda insanlar düz yola qayıtmağı bacarırlar. Amma siz bilə-bilə səhv yoldasınızsa, bu istiqamətdə sizi uğur gözləyə bilməz.

O çağa qədər ki, Ermənistan bu təxribat məsələlərində xarici qüvvələrin əlində alət kimi qalacaq və mən onların sonunu görmürəm. Lakin yaxşı olar ki, heç olmasa siyasilər erməni xalqını da fikirləşsinlər ki, bu xalqa birinci, sabitlik, dinclik, ikincisi isə, mübadilə lazımdır. Əgər siz inteqrasiyadan danışır, Avropa İttifaqına yürüyüş edir və yanınızda olan ölkələr ilə münasibət qurmağı bacarmırsınızsa, hansı inteqrasiyadan nə qazana bilərsiniz? Deməli, inteqrasiya məsələsi sizin üçün bir söz oyunudur. Həqiqətən də, burada mürtəci qüvvələrin əlində oyuncağa çevrilməklə bölgəni gərgin şəkildə saxlamağa çalışırsınız, sabitliyi pozasınız. Bu yolun da sonu yoxdur" - deyə o, əlavə edib.

**Söylü Ağazadə**

## "Nar" region qadınlarının yaradıcılıq imkanlarına töhfə verir

**Sərfəli mobil operator "Nar"ın əsas tərəfdaşlığı, Azərbaycan Rəssamlar İttifaqı və VarYox platformasının təşkilatçılığı ilə baş tutan "Her Art in Action" festivalı uğurla yekunlaşıb. "Xəyal etmək azadlığı" mövzusuna həsr olunan festival qadınların daxili dünyasını incəsənət vasitəsilə ifadə etməsinə və onların yaradıcılıq imkanlarını genişləndirməsinə töhfə verib. Sosial inklüzivlik strategiyası çərçivəsində "Nar" 11 nömrəli internat məktəbinin şagirdlərinin sərgiyə qatılmasını təmin edib. Onlar üçün xüsusi kurator gəzintisi və təqdimatlar təşkil olunub. Bu təşəbbüs "Nar"ın incəsənətə çıxış imkanlarını artırıb, gəncləri yaradıcılığa təşviq etmək istiqamətindəki öhdəliyini əks etdirib.**

Festival çərçivəsində Lesli Qrey və Ayna Moazzenin kuratorluğu ilə keçirilən sərgidə 23 yerli, 3 beynəlxalq rəssam və 1 beynəlxalq kurator iştirak edib. Rəsm, video, performans və instalyasiyaları əhatə edən ekspozisiya sənətin transformativ gücünü – müqavimət və yenilənmə vasitəsi kimi rolunu vurğulayıb. Bundan əlavə, festival çərçivəsində sənətçi çıxışları, portfolio baxışları və ustad dərsləri kimi müxtəlif tədbirlər də keçirilib, peşəkar inkişaf və yaradıcılıq mübadiləsi üçün zəmin yaradılıb.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.








# Təbii fəlakətlər: insan təbiətlə döyüşür





***Bəşəriyyət var olandan bəri planetdə olduqca çox təbii fəlakətlər, daşqınlar, qasırğalar, torpaq sürüşmələri, zəlzələlər baş verib. Ən böyük tələfatlar, ən çox zərərlərlə nəticələnən bu fəlakətlər insanlıq tarixində də dərin izlər qoyub. Dünya tarixində ən böyük iz qoyan fəlakətlər var ki, maksimum tələfatla nəticələnib.***

Statistik hesabatlara baxdıqda məlum olur ki, dünyada baş verən 31 növ təbii fəlakətdən 28-i meteoroloji fəlakətlərdir. Təbii fəlakətlərin növləri, zərərləri, təhlükələri və nəticələri ölkədən ölkəyə dəyişir. Məsələn, Aralıq dənizi regionunda ən çox baş verən fəlakətlər təbii fəlakətlər quraqlıq, daşqınlar, meşə yanğınları, torpaq sürüşmələri, dolu və qar fırtınaları, uçqunlar və şaxtalardır. Bizim ölkəmizdə xoşbəxtlikdən o qədər də çox təbii fəlakət baş vemir, ən çox rast gələnən meteoroloji təbii fəlakətlər dolu, sel, güclü külək, şimşək çaxması, ildırım düşməsidir. Ümumdünya Meteorologiya Təşkilatının məlumatına görə, təkcə 1980-ci ilin əvvəlindənm sonunadək dünyada 700.000 insan meteoroloji fəlakətlər nəticəsində həyatını itirib.

Təbii fəlakətlər baş vermə tezliyinə və səbəblərinə görə də dəyişir. Tədricən gələn təbii fəlakətlər var ki, onlar yavaş-yavaş şiddəti artan şaxta, quraqlıq, aclıq kimi fəlakətlərdir. Onlarla mübarizə və ya maksimum tədbir görmək üçün müəyyən vaxt olur. Lakin qəfil təbii fəlakətlər var ki, onlar ən töhlükəli olanlardır. Zəlzələ, sel, sürüşmələr, qaya və dağ uçqunları, fırtınalar, sunamilər, tornadolar, vulkanlar, yanğınlar və bu tip qəfil fəlakətlər daha çox dağıntıya və insan itikisinə səbəb olur. Bunlardan başqa, insanların əli ilə törədilən süni fəlakətlər də var ki, o fəlakətlər də böyük təlafatlara və itkilərə səbəb olur. Nüvə, bioloji, kimyəvi silahlarla "qəzalar", nəqliyyat qəzaları, istehsalat qəzaları da insan tələfatlarına səbəb ola, təbiətə zərər verə bilir.

- "Təbiətlə müharibə şəraitindəyik.
Qalib gəlsək, məğlub olacağıq.."
© Hubert Reeves





Tarixin ən böyük sunamisi bizim əsrdə baş verdiyi üçün hamımız bunun şahidi olduq. 2004-cü ildə Hind okeanında, Sumatra adasının sahillərində baş vermiş 9 bal gücündə zəlzələ nəticəsində 2 milyona yaxın insan evsiz qalmış, 230 min insan həyatını itirmişdi. 1815-ci il aprelin 10-da İndoneziyanın Sumbava adasındakı Tambora vulkanının püskürməsi, lava püskürməsi nəticəsində 12.000 insan həyatını itirdi, daha sonra isə kül səpələnməsi səbəbindən kənd təsərrüfatı məhv olduğu üçün 90.000-dən çox insan həyatını itirdi. Partlayış səbəbindən həmin il Şimal yarımkürəsində yay olmadı və buna görə də kənd təsərrüfatı işləri tamamilə dayandı.

İndiyə qədər məlum olan ən ölümcül siklon olan Bhola 1970-ci ildə baş verdi və təxminən 500.000 insanın ölümünə səbəb oldu. Həmin vaxt Pakistan və Banqladeşin əksər hissəsi bundan zərər çəkdi. Siklonun keçdiyi yerlərdə evlərin 80%-i dağıldı və 3,5 milyon insan bu qasırğadan zərər çəkib. Bilinən ən böyük zəlzələ isə 22 may 1960-cı ildə Çilidə baş verib. 9.5 gücündə baş verən zəlzələdə 220 min adam ölüb.

1920-ci il dekabrın 16-da baş verən Rixter cədvəli ilə 8,5 bal gücündə zəlzələ nəticəsində Çinin Kansu əyalətində nəhəng sürüşmə baş verdi və insanlar nə baş verdiyinin fərqinə varmadan tonlarla torpaq qalaqları altında qalıb öldülər. 200 min insanın öldüyü hadisə tarixin ən böyük sürüşmə fəlakəti olub. Şaansi zəlzələsində də bu şəhərin əhalisi bəşər tarixində ən böyük zəlzələlərdən birini yaşayıb. 1556-cı ildə Çində baş verən 8 ballıq zəlzələdə ümumilikdə 830 min insan həyatını itirib.

1972-ci ildə İranda 4000 nəfərin ölümünə səbəb olan qar fırtınası 200 kəndi xəritədən silib. Fevralın 3-də başlayan fırtına fevralın 9-da başa çatanda qarın qalınlığı 8 metr olub. Bu, məlum olan ən ölümcül çovğun kimi tarixə düşdü. 2023-cü il Türkiyə üçün də unudulmaz il oldu. Fevralın 6-da 7,7 bal gücündə baş verən zəlzələdə 53 mindən çox insan həyatını itirdi. Zəlzələ Suriyada da böyük dağıntılara səbəb oldu və bölgədə ən azı 5800 insanın həyatını itirdiyi məlum oldu.

Nə zəlzələ, nə sel, nə sunami, nə tornado, nə də quraqlıq – bunlardan böyük fəlakət olan aclıq və xəstəlik də dünyada böyük qırğınlara səbəb olub.

1845-1852-ci illərdə İrlandiyada baş verən kartof qıtlığı ölkə əhalisinin dörddə birinin ölümünə səbəb oldu -7 ildə 1 milyon insan! Bəşər tarixində ən ölümcül təbii fəlakət isə ispan qripi hesab edilir. 1918-1919-cu illərdə baş vermiş bu fəlakətli epidemiya ticarət gəmiləri vasitəsilə demək olar ki, bütün dünyaya yayıldı. Hindistanda 16 milyon insan öldürən ispan qripi Amerikada 650.000 insanın və bütün dünyada 100 milyona yaxın insanın ölümünə səbəb olub.

***Lalə Mehralı***

# Makronla Merzin “bal ayı”

***Uzun illərdir ziddiyyətli olan Fransa və Almaniya indi münasibətlərini yaxşılaşdırıb. Makron və Almaniyanın yeni federal kansleri Merz nə az, nə çox “bal ayı” yaşayırlar, deyə bilərik. Bununla belə, “Politiko” nəşri yazır ki, bunun nə qədər davam edəcəyi məlum deyil - hər şey əsas siyasi məsələlərdə ölkələrin mövqelərindən asılı olacaq. Bu fransız-alman cütlüyü (fransızlar onları belə adlandırır) və ya lokomotiv (almanlar onları belə adlandırırlar) nadir hallarda belə yekdillik və mövqelərin ümumiliyini hiss edirdilər. Fransa və Almaniya rəsmiləri yeni kansler Fridrix Merzlə Fransa prezidenti Emmanuel Makron arasında münasibətlərin artıq nə qədər yaxın olduğundan danışırlar.***



## Fransa tənəzzülə gedir, səbəb indiki prezidentin yarıtmaz siyasətidir

Ortaya çıxan konsensusun əlaməti olaraq Merz mayın 7-də baş tutacaq ilk xarici səfərinin yeri olaraq Parisi seçib. Fransada Merzin borc əyləcini tərk etmək və müdafiəyə böyük sərmayə qoymaq qərarı sevinclə qarşılanıb. Macron illərdir ki, Avropanın müdafiəsinə investisiyaların artırılmasına çağırış edərək baraban çalırdı və Berlin nəhayət cavab verdi. ABŞ prezidenti Donald Trampın Avropaya tariflər tətbiq etmək qərarı, həmçinin NATO-nun Ukraynaya sadiqliyi və dəstəyi ilə bağlı qarışıq siqnalları Merz və Makron arasında yaxınlaşmanı daha da aktual edir. Hər iki lider öz silahlı qüvvələrinin və hərbi sənayenin daha sıx inteqrasiyasına ehtiyac olduğunu görür. Bu isə yeni layihələrin yaranmasına səbəb ola bilər.

Parislə münasibətləri yaxından izləyən Merz Xristian Demokrat İttifaqının qanunvericisi Roland Teis, ”Almaniya və Fransa arasında silah məsələlərində strateji fikir ayrılıqları, ən azı gələcək layihələr üçün yavaş-yavaş aradan qalxmağa başlayacaq”, deyə şərh edib. Fransa və Almaniya artıq FCAS döyüş təyyarəsi və yeni nəsil tank kimi bir neçə birgə layihələrdə əməkdaşlıq edirlər, baxmayaraq ki, hər ikisi ciddi problemlərlə üzləşirlər. Ancaq sürtünmə nöqtələri də var. Fransa qıcıqlanır ki, Almaniya kansleri Olaf Şolz vaxtından əvvəl Amerika və İsrailin hava hücumundan müdafiə texnologiyalarına sərmayə qoydu, eyni zamanda Avropa variantlarını rədd etdi.

### Transatlantik əlaqələr

Almaniyanın geosiyasi məsələlərdə Birləşmiş Ştatlara qarşı davamlı mötəbər münasibəti Makronu daim qıcıqlandırır, çünki onun Avropa İttifaqı ilə bağlı möhtəşəm planları Berlində az rezonans doğurur. Fransız-Alman duetinin bütün söhbətlərinə baxmayaraq, Paris həmişə bunun daha çox üçtərəfli tanqo olduğunu bilirdi, Berlin həmişə Vaşinqtondan gələn siqnalları dinləyirdi. Avropadan üz döndərməyə başlayan prezident Donald Trampın qayıdışı ilə hər şey dəyişib.

Merzin mühafizəkar CDU-nun növbədənkənar seçkilərdə qalib gəldiyi fevral axşamı, transatlantizmin bu qatı tərəfdarı Avropanı “ABŞ-dan müstəqilliyə nail olmağa” çağırdı. Bu, böyük nisbətdə dəyişiklik idi və Fransada çoxlu tərəfdarlar tapdı. Merzin CDU ilə koalisiyaya girən sol mərkəzçi Sosial Demokratlar Partiyasından Almaniya deputatı Nils Schmid, bu addımın həm CDU, həm də lideri üçün heyrətamiz 180 dərəcə dönüş olduğunu söylədi. De Qollun irsinə sadiq qalan Fransa Qərb dünyasının ən böyük fövqəldövlətindən həmişə ehtiyatlı olub, ondan hədsiz dərəcədə asılı olmaq istəməyib. Makron Tramp və onun sələfi Co Baydenlə yaxın münasibətlər qurub, lakin Fransa prezidenti həmişə təkid edib ki, Avropa daha çox Fransaya bənzəsin və onun xətti ilə strateji muxtariyyət əldə etsin. Merzin gəlişi ilə bu məqsəd həmişəkindən daha yaxındır. Merz və Makron telekommunikasiya və texnologiya kimi sektorlarda “Avropa çempionları” yaratmağı asanlaşdıraraq, bürüzəsizliyi azaltmaq və rəqabət qaydalarını dəyişdirmək üçün Brüsselə birgə təsir etmək niyyətindədirlər.

### Enerji

Enerji məsələsi uzun müddət Fransa və Almaniya arasında maneə olub. Avropa Ukraynada silahlı münaqişə başlayandan bəri enerji qiymətlərini aşağı salmağa çalışdığı üçün Şolz və Makron müntəzəm olaraq subsidiyalar üzərində qılınc atıblar. Fransa illərdir nüvə enerjisinin karbon neytral olduğunu və buna görə də yaşıl enerji üçün nəzərdə tutulan Aİ subsidiyalarını alması lazım olduğunu iddia edir. Berlin nüvə enerjisinə bu cür dəstəyin Almaniyanın günəş və külək enerjisini daha az cəlbedici edəcəyindən qorxurdu. Merz tam razılaşmır, lakin bərpa olunan enerji onun prioritetləri siyahısından çox uzaqdır. Bu da Fransa üçün yaxşı xəbərdir.

Hazırda Beynəlxalq Münasibətlər İnstitutunda çalışan keçmiş fransız diplomatı Paul Maurice ”Heç bir blokada olmayacaq” deyib. Bununla belə, Almaniya, Portuqaliya və İspaniya kimi, Fransanın H2Med boru kəmərinin tikintisini dəfələrlə gecikdirməsindən o qədər də sevinmir ki, bu boru kəməri Pireney yarımadasından Fransaya yaşıl hidrogeni nəql edəcək və daha da şimala yanacaq aclığı olan alman sənayelərini təchiz edəcək.

### Merkosur ticarət müqaviləsi

AB-nin Latın Amerikası ilə 30 ildən artıqdır danışıqlar apardığı genişmiqyaslı ticarət sazişi uzun müddət Fransa və Almaniya arasında mübahisə mənbəyi olub. Merz Almaniyanın ixracyönümlü iqtisadiyyatına, xüsusən də Vaşinqtonda artan proteksionizm qarşısında yeni bazarlar tapmağa imkan verən ticarət sövdələşmələri vasitəsilə Almaniyanın dayanmış iqtisadiyyatını işə salmağı təklif edib. Merkosur ticarət müqaviləsi kansler siyahısında birinci yerdədir və Merz onun ən qısa zamanda ratifikasiya olunmasını görmək istəyir.

Azad ticarət məsələsində CDU (mühafizəkarlar) və Merz çox israrlı davranırlar, çünki ticarət müharibəsi yaxınlaşır və Almaniya təcili olaraq tərəfdaşlıqlarını diversifikasiya etməlidir. Fransa Merkosur müqaviləsinə qəti şəkildə qarşı çıxır və deyir ki, bu, Latın Amerikası fermerlərinə rəqabət üstünlüyü verəcək, çünki istehsal standartları Avropada daha sərtdir. Makron bununla razılaşarsa, bu, ona siyasi baxımdan baha başa gələcək, çünki belə bir addım fermerləri qəzəbləndirə və onsuz da böyüyən ifrat sağı gücləndirə bilər.

Bununla belə, Fransa hökumətinin münasibətini dəyişə biləcəyinə dair artıq kiçik əlamətlər var. Fransanın ticarət naziri Laurent Saint-Marten Trampın Aİ mallarına tətbiq etdiyi tariflərin Parisə həyəcan siqnalı göndərdiyini və onu ticarət tərəfdaşları siyahısını şaxələndirməyə məcbur etdiyini bildirib. Nazirin sözlərinə görə, qarşı tərəf Fransanı razı salmaq üçün güzəştə gedərsə, Yelisey sarayı MERKOSUR müqaviləsi ilə bağlı mövqeyini dəyişə bilər. Keçən həftə televiziyaya verdiyi müsahibədə Merz deyib ki, bu gün hətta Emmanuel Makron Merkosur müqaviləsini ratifikasiya etməyə meyllidir. Parisdəki rəsmilər bu cür şərhləri aşağı salmağa çalışırlar, lakin onların Berlinli həmkarları özəl olaraq deyirlər ki, prezident Makron sazişin əleyhinə səs verməyəcəyinə və bunun əvəzinə bitərəf qalacağına işarə edir. Razılaşma ötən il razılaşdırılıb, lakin onun qüvvəyə minməsi üçün Aİ üzv dövlətlərinin ixtisaslı əksəriyyəti və Avropa Parlamentində səs çoxluğu tərəfindən təsdiqlənməlidir.

### Fransa - Avropanın sonuncu xəstəsi

Yeni Merz koalisiya hökumətinin alman bizneslərinə onları dəstəkləmək üçün verəcəyini vəd etdiyi böyük subsidiyalar vahid bazarda təhriflərin qarşısını almaq üçün Aİ-nin birgə borclanma sxeminə dair yeni çağırışları gücləndirir. Aİ bu yay yeni yeddiillik büdcə ilə bağlı danışıqlara başladıqda debatlar daha da güclənə bilər. Lakin Reyn çayının o tayında Makronun çağırışları çətin ki, eşidilsin.

Merz uzun illər ərzində büdcə kəsirini ÜDM-in 0,35%-i ilə məhdudlaşdıran Almaniyanın bədnam borc əyləci qaydasına düzəliş edib, lakin o, çətin ki, borcunu artırsın, çünki onun mühafizəkar müttəfiqləri çox güman ki, onun sakit buraxmayacaqlar. Çünki Fridrix Merz hələ hakimiyyətin cilovunu ələ keçirməyib və onun sorğularının sayı artıq azalmağa başlayıb. O, seçicilərə iqtisadiyyatdakı liberal və mühafizəkar dəyərlərinin əlamətlərini göstərməli olacaq. Beləliklə, Avropa borclanma sxemi fəsadlarla üzləşəcək.

Paris üçün kiçik bir ümid var. Merz hələlik müdafiənin birgə maliyyələşdirilməsini tamamilə istisna etməyib, lakin Aİ-dən silahların alınması və istehsalında daha səmərəli olmasını tələb edir və yalnız bundan sonra mümkün həll yollarının müzakirə oluna biləcəyini söyləyir. Le Point yazır ki, Makronun dövründə Fransanın inkişafı öz yerini tənəzzülə verdi və tənəzzül çöküşlə əvəzlənir. Bu, həyatın bütün sahələrinə təsir etdi - və proqnoz son dərəcə əlverişsizdir. Sadəcə olaraq, ölkə yeni prezident seçkilərinə qədər sağ qala bilməz.

Emmanuel Makronun dövründə Fransanın tənəzzülü süquta çevrildi. Doğum nisbətinin qadın başına 1,62 uşağa düşdüyü və 2027-ci ildə ölüm nisbətinin doğum nisbətini aşacağı bir demoqrafik çöküş başlanıb. Həmçinin 2024-cü ildə 81 milyard avro kəsirlə nəticələnəcək ticarət böhranı var – və bu, hətta Donald Trampın proteksionist tədbirlərindən əvvəldir. İşsizliyin əmək qabiliyyətli əhalinin 8%-ə yüksəlməsi, ölkənin bütün regionlarının yoxsullaşması və adambaşına düşən sərvətin Almaniya ilə müqayisədə 15%-dən çox azalması ilə sosial çöküş var. Çöküş maliyyədir, dövlət borcu 3,3 trilyon avrodur (və ya ÜDM-in 113%-i). Faiz dərəcəsinin (3,55%) nominal artımdan (2,5%) xeyli yüksək olduğunu nəzərə alsaq, bu borcu davamlı adlandırmaq olmaz. Dövlətin dağılması, təhsil sisteminin, səhiyyənin və təhlükəsizliyin dağılması dövlətin ÜDM-in 57%-nə nəzarət etməsinə baxmayaraq genişlənir.

2024-cü ilin iyununda Milli Assambleyanın mənasız şəkildə buraxılmasından bəri ölkədə institusional xaos hökm sürür. Hökumət qərarlarının qəbulu prosesi iflic vəziyyətə düşüb və siyasi həyat həm xarici aləmdən, həm də Fransa cəmiyyətindən təcrid olunmuş keçilməz köpüyün içinə düşüb. Beşinci Respublika tarixin ölkə üçün hazırladığı sarsıntıların öhdəsindən gəlmək üçün yaradılsa da, 1930-cu illərdən bəri üzləşdiyi ən təhlükəli vəziyyət qarşısında icra hakimiyyəti tıxanır və Fransa müdafiəsizdir. Respublika prezidentinin və baş nazirin yeganə məqsədi hakimiyyətdə qalmaqdır. Fransanın düşdüyü kritik vəziyyət daha da absurddur. Fransanın bərpası Avropanın güclü qüvvəyə çevrilməsi üçün zəruri şərtdir. Lakin bunun üçün fransızlar ölkənin BVF, Avropa İttifaqı və AMB-nin nəzarətindən çıxmasına və avtoritarizm şirniklənidirilməsindən yayınmasına imkan verəcək lazımi islahatları həyata keçirməyə qərar verməlidir. İndi avtoritar imperiyaların, eləcə də onlara qoşulmuş ABŞ-ın yelkənlərində külək əsir, lakin uzunmüddətli perspektivdə istibdadın, yırtıcı kapitalizmin və qeyri-məhdud genişlənmə planlarının hökmranlığı son dərəcə qeyri-sabitdir. Fransız xalqının çox böyük olan enerjisini və yaradıcılıq qabiliyyətlərini Fransanın dirçəlişi və azadlığının müdafiəsinə xidmətə səfərbər etməyə təcili ehtiyac var. Artıq çox vaxt itirilib.

***V.VƏLİYEV***

ANALİTİK



# Alma boyda çiyələk, daş kimi pomidor

*Qida zəhərlənməsi, hər kəsin başına gələ biləcək bir hadisədir – bəzən ehtiyatsızlıqdan, bəzən tamahdan. Qida zəhərlənməsi bəzən adi bir mədə yuyulması ilə yüngül bir şəkildə sovuşdurula bilən prosesdirsə, bəzən də ölümə yol aça biləcək qədər təhlükəlidir. Qida zəhərlənməsinin səbəbləri çoxdur, məhsulların gigiyenik şəraitdə saxlanmaması, tərkibində olan kimyəvi elementlər, habelə orqanizmin mənimsəyə bilmədiyi maddələrlə zəngin olması da bu səbəblərdəndir. Zəhərlənməyə səbəb olan qidaların çeşidi isə boldur.*









Daha çox yay aylarında rast gəlinən qida zəhərlənməsi özünü ishal, ürəkbulanması, qusma və mədə ağrıları ilə büruzə verir. Adətən, qida zəhərlənməsi bir neçə günə düzəlsə də, bəzi zəhərlənmə halları həddən artıq ciddi problemlərə yola aça bilər. İsti havada qida zəhərlənməsi daha çox rastlanır. Zəhərlənmələr daha çox yay aylarında, daha çox çiyələk, qarpız mövsümündə olur.

Kənd təsərrüfatı məhsullarının yetişdirilməsində ziyanvericilərlə mübarizə üçün geniş şəkildə kimyəvi dərmanlardan istifadə edilir. Torpağa bol gübrə verilir. Təkcə Qubada bir il ərzində alma ağaclarına ziyanvericilərlə mübarizə aparmaq üçün 16 dəfə zəhər vurulur. Torpağa külli miqdarda zəhərli maddələr yeridilir və bunlar yerində qalmır, meyvələrlə, tərəvəzlərlə insan orqanizminə daxil olur. Çoxlu məhsuldarlıq əldə etmək üçün külli miqdarda zəhərli maddələrdən istifadə edilir. Bunun da nəticəsi zəhərlənmələr olur.

## Çiyələklər həm rəngini, həm formasını dəyişib

İndi bütün ölkələrdə geniş şəkildə yetişdirilən çiyələk sortları Amerika mənşəlidir və meyvələri həddindən artıq böyükdür. İddia edilir ki, böyük meyvələr hormon dəyişikliyi əlaqəli deyil, toxumun mənşəyindən qaynaqlanan vəziyyətdir. Çiyələklərin həddindən böyük olmasını iqlim şəraiti ilə, bərk olmasını isə növü ilə əlaqələndirirlər.

İstehlakçı bazarda normal ölçülü çiyələk tapa bilmir, ümumiyyətlə, çiyələyin rəngi də narahatlıq doğurur. Belə ki, bir zamanlar alqırmızı rəngdə olan təbii çiyələklər indi qaraqırmızı rəngə çalır.

Kalsium və bor çatışmazlığı səbəbindən də çiyələklərdə deformasiyalar yarana bilər. Bundan başqa, ekspertlər hesab edir ki, gecə ilə gündüz arasındakı temperatur fərqi, gübrə çatışmazlığı da səbəblərdir. İddia edilir ki, bitki gecə ilə gündüz arasındakı temperatur fərqi səbəbindən stress altındadır.

## Daş kimi pomidorlar

Bakı bazarlarında satılan pomidorların zərərli olması, insan səhhətinə mənfi təsir edən dərmanla yetişdirilməsi ilə bağlı iddialar irəli sürülür. İddialara görə, kal pomidorun vaxtından daha tez qızarması üçün ona xüsusi dərman vurulur və bu dərman 10 günə qızarmalı olan pomidorun 1-2 günə qızarmasına səbəb olur. Həmin dərman pomidorun içinin qurumasına, mayesinin azalmasına səbəb olduğundan daha sonra pomidorun daha ətli olmasını təmin edən başqa bir dərman vurulur.

Ağır zəhərlənməyə səbəb qidalardan biri də məhz bu pomidorlardır. Mövsümündən qabaq bazara çıxarılan və müxtəlif dərmanlarla erkən yetişməsinə imkan yaradılan pomidorun həm təzəsi, həm də konservləşdirilmiş halı orqanizmi ağır formada zəhərləyə bilər. Hazırda dükan-bazarda istehlakçıya təklif edilən pomidor daş kimi bərk, dadsızdır. Mövsümündən əvvəl istehlak edilən pomidoru qəbul edərkən sirkəli suda yaxşıca yumalı, sonra isə qabıqlarını soyaraq istehlak etməlisiniz.

## Avqustdan əvvəl qarpız yeməyin

Tez yetişməsi üçün qarpıza da kimyəvi maddələr vurulur. Bu maddələr normadan artıq olduqda orqanizmdə toksinlər artır və zəhərlənmə halları yaranır. Daha çox müşahidə edilən və ən təhlükəli sayılan zəhərlənmələr də məhz qarpızla bağlıdır. Zəhərlənmələr nitratların çox olmasından qaynaqlanır.

Əhali bilməlidir ki, qarpızın tərkibində maksimum 1 kiloqramda 60 milliqram nitrat ola bilər. Ekspertlər xəbərdarlıq edir ki, sutka ərzində 200-300 milliqram nitrat qəbul edərsə, bu zəhərlənmə ilə nəticələnər. Bu o deməkdir ki, qarpızın 1 kiloqramının tərkibində 100 milliqram olarsa, həmin qarpızdan 2 kiloqram yeyən insan zəhərlənə bilər. Xüsusilə də uşaqlar, immuniteti zəif insanlara daha tez təsir edir.

Ekspertlər qarpızı avqust ayında istehlak etməyin tərəfdarıdır. Daha tez bazara çıxarılan məhsul kimyəvi maddələrlə yüklənmiş, zorakı yetişdirilmiş olur ki, bu da təbii olaraq sağlamlığımızı hədələyir.

## Balıq da təhlükəli ola bilər

İnsanı öldürə biləcək qədər güclü zəhərlənməyə səbəb olan qidalardan biri balıqdır. Xüsusilə, çiy balıq ən çox zəhərlənməyə səbəb olan qidalar sırasındadır. Bəzi ölkələrin mətbəxində çiy şəkildə qəbul edilən balığın tərkibində “scombroid” adlı maddə var. Balığı istehlak edərkən təzə olmasına və yaxşı bişməsinə əmin olmaq vacibdir. Bundan əlavə, isti yay günlərində balıqla qidalanmaya bir qədər ara verməк məsləhətdir.

Qida zəhərlənməsinin səbəbləri arasında ön sıraları tutan qidalardan biri olan ət çiy, ya da az bişmiş olduqda zəhərlənməyə səbəb ola bilir. Çiy ətin tərkibində müxtəlif cür bakteriyalar var. Onlardan bəziləri hətta qaynama temperaturunda belə məhv olmur. Kabab, dönər kimi ət qidalarından uzaq olmaq lazımdır. Yaxşı qaynadılmış əti istehlak etdikdən sonra isə ağartı məhsulları qəbul etmək vacibdir.

**Lalə Mehralı**

# Dünyanın xilası üçün yeni sistemə keçid vaxtı çatdı: Real alternativ nədir?




*“Axırıncı ağac kəsiləndən, axırıncı çay çirkləndirildikdən, axırıncı balıq tutulandan sonra insanlar başa düşəcəklər ki, pulu yemək olmur...” (Hindu atalar sözü)*

Bu gün getdikcə kəskinləşməkdə olan qlobal ekoloji böhran kapitalist istehsal tərzinin üzləşdiyi böhranların daha artıq təxirə salına bilməyəcəyini göstərir. Çünki bəşəriyyətin son bir neçə əsrlik tarixi dünya resurslarının sistemli talanetmə və təbiətin məhvedilmə siyasətindən ibarətdir.

Kapitalist istehsal üsulu, təbiəti dəyişdirən istehsalla yanaşı, ən yüksək səviyyədə sərvət toplama hərisliyi, izafi dəyər və istismar anlayışı kimi kateqoriyaları da əhatə edir. Kapitalist istehsal tərzində kapital toplanmasının sürətləndirilməsi və sərvətlərin mümkün qədər tez və çox şəkildə məninməsilməsi məqsədilə həyata keçirilən məhvetmə siyasəti hal-hazırda qlobal miqyasdadır- bu isə həm planetin təbii tarazlıqlarını, həm də özünün də təbiətin bir hissəsi olduğunu hələ də tam dərk etməmiş kimi görünən bəşəriyyəti təhdid edir.

Bu prosesdə ortaya çıxan ən mühüm təhlükələr dənizlərin və içməli su ehtiyatlarının çirklənməsi, kimyəvi, bioloji və nüvə tullantılarından yaranan problemlər, karbon emissiyalarının artması, iqlim dəyişikliyi və qlobal istiləşmə, bütün bəşəriyyətin ətraf mühitə vurduğu ziyana görə üzləşdiyi eroziya nəticəsində əkin sahələrinin azalmasıdır.

Kapitalist istehsal üsulunun daxili dinamikasına görə kapital sürətlə böyüməli, toplanmalı və genişlənməlidir. Kapitalın toplanması prosesi yüksək rentabelliyə əsaslandığı üçün belə genişlənmə daxili dinamikanı (rəqabət, devalvasiya, inflyasiya, istehlak çılğınlığı və s. bu kimi fenomenləri) hərəkətə gətirir və kapitalizmi istehsalın davamlı artımından asılı edir. Kapital sanki qarşısında heç bir maneə və ya məhdudiyyət yoxmuş kimi daha geniş miqyasda istehsal etməyə və yığılmağa meyllidir. Kapitalist yığım prosesində mənfəət üçün həddindən artıq istehsal (tələbatdan artıq istehsal) resursların vəhşicəsinə istismarı və təbiətin çirkləndirilməsini təmin edir.

İstehsalın davamlı artımı və istehlakın sürətləndirilməsi də ictimai ehtiyaclardan qopmuş istehlak səviyyəsini doğurur. Bu, yeni zövqləri və üstünlükləri müəyyən edən dəbli həyat tərzinin və “birdəfəlik” tipli məhsulların yayılmasını sürətləndirir. Kapitalın hökmranlığı altında istehsal və istehlakın artımını sürətləndirən amillər kommunikasiya və nəqliyyat imkanlarının artırılmasıdır. İnformasiya texnologiyalarının inkişaf etdiyi sürətli kommunikasiya və qloballaşma dövründə daha sürətli nəqliyyat və kommunikasiya sistemlərinin yaradılması kapital yığımının genişlənməsi və kapital dövriyyəsinin daha sürətli olması üçün vacibdir. Bunun sayəsində istehsal və dövriyyə prosesinə daxil olan məhsullar tez bir zamanda təyinat yerlərinə çatdırılmalı, işçilər isə vaxt itirmədən iş yerlərinə çatdırılmalıdır.

“Vaxt puldur” və kapitalın itirəcək pulu yoxdur. Bu məqsədlə onların nəhəng təyyarələri, gəmiləri, yük maşınları, sürətli qatarları və ictimai nəqliyyat vasitələri var. Bunların sayəsində dövriyyə sürətlənir, süni yaradılmış tələbatlar sayəsində istehlak artırılır və bu da istehsalın genişlənməsinə gətirib çıxarır. Nəticədə xammala ehtiyac çoxalır və təbii sərvətlərə təzyiq güclənir. Bu proses kapitalist dövriyyəsinin yaratdığı ekoloji böhranı ortaya çıxarır. Çünki kapitalist quruluşunun yaratdığı fərdiyyətçi şəhər adamının və kapitalist burjuaziyasının düşüncə tərzi budur. Bu düşüncə tərzində mövcud olan hər şey kapitalist istehsal üsulunun davamlılığını təmin edən mənfəət normalarının artırılması və kapital yığımının genişləndirilməsi məqsədi daşıyır.

Bunbu təmin etmək üçün isə təbiətin vurduğu zərəri (təbii fəlakətlər, quraqlıq, bitki və heyvanlarda yaranan xəstəliklər və s.) azaldacaq təcrübələri inkişaf etdirərək süniləşdirilmiş istehsal sahələri yaradılır (qida, dərman və s). Bu səbəbdən ekologiyaya burjua baxışı problemin real qaynaqlarını və ölçülərini gözardı edir. Qlobal kapitalizmin irəli sürdüyü bütün həll təklifləri problemin səbəbləri ilə deyil, yalnız nəticələri ilə bağlıdır. Beləliklə, onlar ekologiyanın sağlamlaşdırılması üçün fundamental tədbirləri həyata keçirmir, məsələn zərərli sənaye sahələrini dayandırmır, təbiətin bioloji sistemini dəyişdirmnəkdən vaz keçmir, çünki bu gəlirləri azalda bilər, əvəzində bunun nəticəsində ortaya çıxan zərərlərin formal olaraq aradan qaldırılmasına çağırılır. Beynəlxalq ekoloji konqresslərdə iri sənaye dövlətləri özlərinin zərərli sənaye sahələrini məhdudlaşdırmır, təbiətə atılan tullantıları azaltmır, amma digər ölkələri belə sənaye sahələri yaratmamağa çağırır. Halbuki, qlobal ekologiyaya vurulan zərəri 40 faizi təkbaşına ABŞ-ın payına düşür.

İri sənaye dövlətləri sənayeləşməmələri üçün inkjişaf etməmiş ölkələrə verilməsi təklif olunan maliyyə yardımları da ayırmaq istəmir. Məsələn, elə Bakıda keçirilən sonuncu COP-29 konrfransında inkişaf etməkdə olan ölkələrə 300 milyardlıq yardım paketi təklifini qəbul etmədilər. Lakin onları texnologiyadan uzaq saxlamağa çalışır və sənayeləşməməyə çağırırlar ki, ekologiyaya zərər dəyməsin.

Bunun səbəbli odur ki qlobal kapitzlimin istehsal mərkəzi iri sənaye dövlətləridir, digərləri isə sadəcə qlobal sənaye oliqarxiyası tərəfindən istismar olunan ucuz xammal mənbəyi kimi qalmalıdır.

Burjuaziyanın hakim olduğu bu perspektiv həm də yaratdığı illüziyalar və manipulyasiyalar vasitəsilə cəmiyyətin əksəriyyətinin şüurunu formalaşdırmaq davam edir. Çünki burjuaziya mövcud sistemin əbədi davam edəcək bir reallıq kimi təqdim edir və cəmiyyətin də alternativ sistemlər haqda düşünməməsini təmin edir. Bu baxışı saxlamaq üçün kapitalizm daxili qorxu mexanizmlərini inkişaf etdirir- mövcud sistem dəyişsə ciddi böhran baş verəcək, sosial fəlakət başlayacaq, istehsal dayanacaq, yoxsulluq artacaq və s.

Bütün bunları mümkün edən isə kapitalın sehrli oyuncağı və insanların yeni tanrısı olan texnologiyadır. Buraya media, incəsənət, süni intellect kimi kütləvi təbiliğat vasitələri daxildir. Nəticədə, insanlar daha sağlam, daha ədalətli, daha zərərsiz sosial iqtisadi sistemlər haqda düşünməyib, mövcud sistemdə birtəhər yaşaya bilmək və özünü mümkün olarsa kapital əldə edərək digər insanlardan daha üstün yaşamaq uğrunda mübarizəyə həsr edir.

Bunun üçün də rəqabət qızışır, insanlar daha çox əmək sərf edir, təhlükəli risklərə gedirlər. Əksər hallarda isə bu, alınmır. Çünbki bu sistemdə kapital hər kəsdə ola bilməz, yalnız kiçik bir qrupun əlində cəmləşməlidir. Bunun hiss olunmaması üçün isə səhmdaqlıq sistemi düşünülüb. İnsanlar iri müəsssisələrin səhmlərini (məsələn, onun kapital dəyərinin milyonda 1 hissəsini) alırlar ki, guya orada pay sahibidirlər və gələcəklərinə gəlir təminatı olacaq. Lakin iqtisadi böhranlar zamanı bu müəssisələrin çoxu sıradan çıxır, gəliri azalır və ya zərərə işləyir. Bu halda səhmdarların pulu batır. Lakin əsl sahibkarlar həmin səhmlərdən əldə etdikləri nəhəng vəsaitləri başqa sahələrə yönəldərək özlərinə yeni gəlirli sahələr yaradırlar. Son nəticədə uduzan yenə sadə insanlar olur. Dəyəri artran səhmlərdən isə sadə insanlar çox cüzi gəlir əldə edir, çünki onda səhmləri müəssisənin milyona biri qədərdir. Daha çox səhmlərə sahib burjuaziya isə daha çox qazanır. Nəticədə hər il dünyada gəlir bərabərsizliyi sürətlə artır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb.***

Kapital yüksək gəlirliliyi və rəqabəti təmin etmək üçün kifayət qədər ucuz qiymətə mal və xidmətlər istehsal etməlidir. Daha ucuz istehsal etmək üçün əməyin məhsuldarlığı artırılmalıdır. Əməyin məhsuldarlığını artırmağın 2 yolu var;

- Birincisi, işçilərin eyni əmək haqqı müqabilində daha uzun saatlar və yaxud gərgin işləməsi yolu ilə istismarını (mütləq izafi dəyər) artırmaq.

- İkincisi, eyni məhsul və ya xidmətin istehsalı üçün tələb olunan əməyin miqdarını (nisbi izafi dəyər) azaldacaq və daimi kapitalın elementlərini ucuzlaşdıracaq yeni üsul və texnologiyaların həyata keçirilməsidir.

Mütləq izafi dəyərin artırılmasının məhdudiyyətləri şəraitində kapitalizmdə məhsuldarlığın artırılmasının əsas elementləri mexanikləşdirmə və yeni texnologiyalardır. Bu isə işçilərin sayını azaldır, onları robotlarla əvəz edir, nəticədə işsiz kütlə çoxalır. Bununla belə, texnoloji ixtiralar istehsal münasibətlərindən və sinfi mübarizələrdən son dərəcə asılıdır. İstehsal prosesinə daxil edilən yeni texniki ixtiraların və maşınların əksəriyyəti bütövlükdə kapitalın həddindən artıq yığılma böhranına girdiyi dövrlərdə meydana çıxır və bütün bu texnikaların ümumi məqsədi istehsalı canlı əməkdən getdikcə daha az asılı etməkdir.

Kapitalist istehsal üsulu siyasi müdaxilə ilə köklü şəkildə dəyişdirilmədikcə, məzmun baxımından böyük dəyişikliklərə məruz qalmayacaq. Yenə də istehsalın gələcəyi ilə bağlı əsas təyinedici qərarlar şirkətin yüksək vəzifəli menecerləri və sahibləri tərəfindən qəbul edilir. Ona görə də işçilərin idarəçilikdə iştirak etməsi mümkün deyil.

Qeyri-kapitalist istehsal münasibətlərində insan öz fəaliyyətinin nəticələrini bütöv şəkildə görə bilir və xarici aləmdəki prosesləri öz hərəkətləri ilə formalaşdırmağın şüurunda olur. Kapitalist istehsal münasibətlərində isə, insan əksinə, xarici aləmdəki proseslərin öz düşüncə və hərəkətlərindən kənarda, başqa qüvvələr tərəfindən formalaşdırıldığı “şüuru”na malikdir.

İçində olduğu ictimai sistemə görə təbiət qarşısında “heç nəyə” çevrilmiş insanları hürkütməmək üçün burjuaziya təbiətə hökm etməyə imkan verən texnologiyanı ilahiləşdirərək onlara süni rahatlıq verir. İnsanlar özlərini, həyatını, yaddaşını da texnologiyaya tabe edir. Lakin burada yenidən tələyə düşür; İnsan tədricən sistemin xaosunda boğulduqca, son bir ümidlə bağlandığı “həyatı asanlaşdıran texnologiyalar” getdikcə daralır və insanın varlıq sferasını çirkləndirir, həyati fəaliyyətini kütləşdirir.

Beləliklə, kapitalizmin istehsal və istehlak proseslərinin müəyyən etdiyi iqtisadi münasibətlərin böhranı ilə yanaşı, insanların, təbiətin və texnologiyanın qarşısında “heç nə”yə çevrilməsi sindromu sosial deqradasiyaya səbəb olur.

Kapitalizmin yaratdığı ekoloji böhran bir tərəfdən qlobal istiləşməyə, ozon təbəqəsinin deşilməsinə, havanın və suyun çirklənməsinin artmasına, turşu buludlarının və yağışların artmasına, zəhərli tullantıların artmasına, bio və genetik müxtəlifliyin məhvinə, torpağın canlılığının itirilməsinə, meşələrin qırılmasına, səhralaşmaya, torpaqların gücünü itirməsinə, qida böhranına və son nəticədə təbii fəlakətlərin çoxalmasına və qlobal kataklizmlərə səbəb olacaq.

Ekoloji böhranın səbəbi kapitalist istehsal üsuludur, bu üsul təkcə təbiəti deyil, insan cəmiyyətini də fiziki və mənəvi olaraq məhv etməkdə olan bir virusdur. Bu gün kapitalizmin böhranının səbəbi kapitalizmin özüdür. Ona görə də ekoloji böhran qlobal kapitalizmin öz daxilində həll edə bilmədiyi böhrandır və buna görə də istənilən halda onun sonunu gətirəcək. Amma bu o demək deyil ki, kapitalizmin köklü şəkildə aradan qaldırılması və yenisi ilə əvəzlənməsi avtomatik olaraq baş verəcək. Çünki ekoloji böhran kökündən həll edilməsə canlıların təbii mühitini məhv etdiyi üçün, ən pis halda, bəşəriyyətin tamamilə yox olmasına gətirib çıxaracaq ki, bu həm də kapitalizmin məhvidir.

Kapitalist istehsal tərzinin nəticəsi “ya sosializm, ya da barbarlıq” şüarının aktuallığını getdikcə daha çox artırır. Əgər kapitalist istehsal üsulu sürətlə böyüməyə davam edərsə, bu barbarlıq nüvə faciəsinədək gətirib çıxara bilər və bəşəriyyətin sonu olar. Beləliklə ortaya sualı çıxır- istismar texnologiyalarının davamlı inkişafı şəraitində ekoloji böhranın həlli ola bilərmi? Su təmizləyici qurğular, bacalar üçün filtrlər, daha çox ağacların əkilməsi, qlobal istiləşməyə səbəb olan istixana qazlarının istehsalına son qoyulması, karbon emissiyalarının azaldılması və s. lokal tədbirlər çıxış yoludurmu?

Bu kimi tədbirlərlə artıq həddən artıq kəskinləşmiş problemin öhdəsindən gəlməyin mümkün olmadığı son dərəcə aydındır və bunlar əslində diqqətin problemdən yayındırılmasıdır. Yəni, səbəblər aradan qaldırılmadıqca, nəticələrlə uğraşmağın fundamental həllə heç bir aidiyyatı yoxdur. Ekoloji hərəkatların daha təmiz istehsal üçün ətraf mühitin qorunmasına yönəlmiş səyləri və təbiəti daha da çirkləndirməmək üçün ölkələrin qəbul etdikləri qanuni tənzimləmələr və razılaşmalar fundamental həll təklif etmir. Bəs çıxış yolu nədir?

***(Ardı olacaq)***

***Elçin Bayramlı***

ELMİ ARAŞDIRMA

SƏS
26 aprel
2025-ci il

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Kiberdələduzluq artır - DİN vətəndaşlara çağırış edib



*Daxili İşlər Nazirliyi kibertalamalarla bağlı vətəndaşlara çağırış edib. Bu barədə Nazirlikdən məlumat verilib. Çağırışda bildirilib: "Dələduzlar sizə zəng edərək, mesaj yazaraq və ya link göndərərək “mütəxəssislərimiz kartınıza kibermüdaxilənin edildiyini aşkarlayıb, kartınızdakı vəsait hər an oğurlana bilər. Xahiş edirik, pulunuzun təhlükəsizliyi üçün kart məlumatlarınızı təqdim edin” deyə, sizdən bank kartınızın məxfi məlumatlarını tələb edə bilərlər. Hətta görüntülü zəng etməklə sizi daha da özünə inandırıb yönləndirə, təlimatlar verib telefonunuzun dilini dəyişdirərək kartınızdakı pulu oğurlaya bilərlər.*

Bir daha qeyd edirik ki, heç bir halda bank əməkdaşı vətəndaşa zəng edib ondan bank kartının məxfi şifrələrini istəmir, bunun üçün link, SMS, yaxud elektron məktub göndərmir. Hansısa şübhəli əməliyyat aşkarladıqda, hətta sistemdə çətinliklər yaransa belə heç bir bankın əməkdaşının sizdən məxfi kart məlumatlarını soruşmağa ehtiyacı yoxdur.

Bank əməkdaşı sizdən yalnız kartınızın ilk və ya son 4 rəqəmini, sistemdə qeydiyyatda olan əlaqə nömrəsini və şəxsiyyət vəsiqənizin FİN kodunu istəyə bilər. Anlamalıyıq ki, bank kartınızın tam nömrəsini, PİN, CVV, OTP kodlarını və digər şəxsi məlumatları istəyən, sizə SMS göndərən şəxslər dələduzlardır. Onlara inanmayın, şübhələndiyiniz ilk anda zəngi sonlandırın. Gəlin, kartınızın təhlükəsizliyini birgə qoruyaq!”.

# Həcc ziyarətinə sənəd qəbulunun vaxtı uzadıldı - 1 nəfər üçün 6000 dollar...

*Həcc ziyarətinə getmək üçün sənəd qəbulunun müddəti may ayının 10-dək uzadılıb. Bunu Trend-in sorğusuna cavab olaraq Qafqaz Müsəlmanları İdarəsinin Xarici Əlaqələr şöbəsinin müdiri, Həcc elektron sisteminin rəhbəri Vüsal Cahangiri deyib.*



O bildirib ki, hazırda kvota 96%-dən çox dolub. "Bu il kvota sayı 1200-1300 arası müəyyənləşdirilib", - QMİ rəsmisi qeyd edib.

Qeyd edək ki, bir nəfər üçün ziyarət paketinin qiyməti 5950 ABŞ dolları təşkil edir. Ziyarət vahid formada təşkil olunacaq və hava nəqliyyatı ilə həyata keçiriləcək.

# “Mançester Yunayted” 73 milyon avroya yeni futbolçu alacaq



*İngiltərənin "Mançester Yunayted" klubu "Vulverhempton"da çıxış edən Braziliya millisinin futbolçusu Mateus Kunyanın transferini tamamlamağa hazırlaşır. "Goal Brazil" nəşrinin yazdığına görə, "qırmızı şeytanlar" 25 yaşlı hücumçunun keçidi ilə bağlı razılığa gəlib. Mançester təmsilçisi forvard üçün kluba 73 milyon avro ödəyəcək.*

Qeyd edək ki, Mateus Kunya cari mövsüm "Vulverhempton"un heyətində 31 oyuna çıxıb, 16 qol və 4 məhsuldar ötürmə ilə yadda qalıb.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000